HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 12 (854) ▪ 5 aprel 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına rəsmi səfəri

Aprelin 3-də Azərbaycana səfərə gələn Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi qarşılayıb. Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirilib. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Nursultan Nazarbayevə, Qazaxıstan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.



Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin məhdud və geniş tərkibdə görüşü olub.

Dövlət başçılarının geniş tərkibdə keçirilən görüşündə Prezident İlham Əliyev bildirib ki, hər iki tərəfin müzakirə edilən bütün məsələlər barədə mövqeləri tamamilə üst-üstə düşür: «Siyasət sahəsində fəal qarşılıqlı əlaqələrimizi, iqtisadi sahədə, nəqliyyat sahəsində yaxşı perspektivləri ətraflı müzakirə etmişik və indi nümayəndə heyətlərinin iştirakı ilə diskussiyaları davam etdirəcəyik». Prezident Nursultan Nazarbayev isə son illərdə münasibətlərdə yeni mərhələ başlandığını, iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırıb.

Sonra Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Prezidentlərin Birgə Bəyannaməsini imzalayıblar. «Azərbaycan Dəmir Yolları» QSC ilə Qazaxıstan Dəmir Yolları Milli Şirkəti arasında logistika və dəmir yolu nəqliyyat maşınqayırması sahəsində strateji əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ikiqat vergitutma sahəsində Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol», «Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş», «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2017-2018-ci illər üzrə Əməkdaşlıq Proqramı» və «Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş» sənədləri imzalanıb.

Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı bildirib ki, bu gün Qazaxıstan və Azərbaycan fəal inkişaf edən iki müstəqil dövlət kimi əməkdaşlığın ikitərəfli formatını möhkəmləndirir: «Biz beynəlxalq strukturlarda fəal əməkdaşlıq edir, bir-birimizə həmişə qarşılıqlı dəstək oluruq. Bu da bizim münasibətlərimizin səmimiliyinin yaxşı göstəricisidir. Bu gün biz, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələləri müzakirə etdik. Mən Nursultan Abişeviçə nizamlanma məsələsində indiki vəziyyət barədə məlumat verdim. Bizim mövqeyimiz indicə imzalanmış Birgə Bəyannamədə də əksini tapıb. Mən bu mövqeyə görə minnətdaram. Münaqişə beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq təşkilatların, ilk növbədə, Ermənistan hərbi qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində nizamlanmalıdır. Qərar suverenlik, beynəlxalq miqyasda tanınmış sərhədlər və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində qəbul olunmalıdır və nizamlanmanın bu əsas bəndləri bu gün imzalanan Bəyannamədə əks olunub. Bu, münaqişələrin nizamlanması üzrə Qazaxıstanın prinsipial mövqeyinin daha bir göstəricisidir. Münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanmalıdır. Bu, həmçinin Qazaxıstanın ölkəmizə münasibətinin təcəssümüdür».

Hər iki ölkənin regionda güclü tranzit mövqeyinə malik olduğunu deyən Prezident İlham Əliyev yaxın vaxtlarda bu potensialın bütünlüklə işə düşəcəyini ifadə edib: «Biz bu il Asiyadan Avropaya və Avropadan Asiyaya bizim ərazimizlə daşımaların vaxtını əhəmiyyətli dərəcədə azaldacaq Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşəcəyini gözləyirik. Qazaxıstanda da, Azərbaycanda da bütün lazımi infrastruktur yaradılıb. Əminəm ki, bu, iqtisadi baxımdan çox səmərəli olacaq. Biz, həmçinin qeyd etdik ki, son bir ildə Azərbaycandan və Qazaxıstandan qonşu dövlətlərə yüklərin tranziti əhəmiyyətli dərəcədə, bəzi mövqelərə görə isə hətta 8 dəfə artıb. Əlbəttə, bunun üçün təkcə infrastrukturlar kifayət deyil, hərçənd, bunsuz mümkün də deyil. Biz Şərq-Qərb yolunun üstündə yerləşən bütün dövlətlərin tariflərinin endirilməsi və eyniləşdirilməsi üzərində çox fəal işləyirik. Bu gün bizim verdiyimiz tapşırıqlar bu yolu həm xeyli qısaldacaq, həm də iqtisadi baxımdan cazibədar edəcək».

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev iki ölkə arasında qarşılıqlı ticarət əlaqələrini genişləndirməyin vacibliyini qeyd edib: «Demək olmaz ki, 140 milyon dollar potensialımıza cavab vermir, amma bizim imkanlarımızı göstərmir. Buna görə də bu sahədə birinci yerə Xəzər dənizi ilə nəqliyyat-logistika əməkdaşlığı çıxır. Qazaxıstan yeni İpək Yoluna cəlb olunub - Çin Xalq Respublikasının «bir kəmər-bir yol» təşəbbüsü əsasında Çinin sərhədindən Xəzər dənizinə qədər ümumi uzunluğu 2 min kilometrədək olan dəmiryolu inşa edilib. Artıq bu yol işləyir və öz bəhrələrini verir. Qərbi Çin-Qərbi Avropa avtobanının 2700 kilometrlik hissəsi inşa olunub. İndi söhbət Çindən konteynerlərin gətirilməsindən gedir. Yəqin eşitmisiniz, konteynerlər artıq Qərbi Avropaya, Böyük Britaniyaya 14 sutka ərzində çatdırılır, halbuki dənizlər və okeanlar vasitəsilə 40-45 sutkaya gətirilirdi. İndi isə məsələ belə qoyulub ki, yüklər Avropaya Qafqaz - Bakı, Xəzər dənizi vasitəsilə gətirilsin. Burada isə böyük potensial mövcuddur».

Nursultan Nazarbayev bildirib ki, birgə layihələrin icrası sayəsində 2020-ci ilədək əmtəə dövriyyəsini 500 milyon dollara qədər artırmaq mümkündür. Sənaye sahəsində əməkdaşlıqdan bəhs edən Qazaxıstanın dövlət başçısı Azərbaycandan metal məhsullar, mis, polad və digər sənaye mallarının idxal olunacağını xatırladıb.

Sonra Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin «Heydər Əliyev» ordeni ilə təltif edilməsi mərasimi keçirilib. Prezident İlham Əliyev bildirib ki, «Heydər Əliyev» ordeni Azərbaycan dövlətinin ali mükafatıdır və bu gün həmin mükafat Heydər Əliyevin və Azərbaycan xalqının, Azərbaycanın böyük dostu Nursultan Nazarbayevə təqdim edilir. Dövlətimizin başçısı Qazaxıstan Prezidentinin ikitərəfli əlaqələrin inkişafında və dostluq əlaqələrinin möhkəmlənməsində fəaliyyətini yüksək qiymətləndirib və «Heydər Əliyev» ordenini Nursultan Nazarbayevə təqdim edib.

## Aprel döyüşləri şanlı hərbi qələbəmizdir

### Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşüb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüş keçirib. Vətən uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin və eyni zamanda, həlak olmuş mülki şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bir il əvvəl Ermənistan növbəti dəfə silahlı təxribata əl atdı, bizim mövqelərimizə atəş açdı, hücum etdi, yaşayış məntəqələrimizi atəşə tutdu: «Bu təxribat nəticəsində hərbçilərimiz şəhid oldu, yaralandı, mülki şəxslər arasında da həlak olanlar oldu. Onların arasında azyaşlı bir qız uşağı da həlak olmuşdur. Bu, növbəti təxribat idi. Ondan əvvəlki dövrlərdə də Ermənistana beynəlxalq təzyiq gücləndikcə onlar bu cür təxribatlara əl atırdılar. 2014-cü ilin noyabr ayında da buna oxşar hadisə baş vermişdi. O vaxt da Azərbaycan Ordusu onlara tutarlı cavab vermişdir. Onların keçənilki təxribatı daha da genişmiqyaslı idi. Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilmişdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik».

Aprel döyüşlərini şanlı hərbi qələbəmiz adlandıran dövlətimizin başçısı həmin döyüşlərdə xalqımızın, ordumuzun öz gücünü göstərdiyini, döyüşlər nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağının dalğalandığını diqqətə çatdırıb. «Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək».

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qeyd edib ki, aprel döyüşləri Ermənistanın bu vaxtadək yaratmağa çalışdığı bütün mifləri, əfsanələri darmadağın etdi və göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur: «Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özünü tam şəkildə ifşa etmişdir. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Halbuki onlar o dəstəyə çox arxalanırdılar, ona bel bağlayırdılar. O dəstəyi almadıqdan sonra həmişə olduğu kimi, müxtəlif ölkələri ittiham etməyə başladılar. Axırda məcbur olub aprel döyüşlərinin məğlubiyyətini etiraf etdilər».

Dövlətimizin başçısı bildirib ki, Dağlıq Qarabağ bütün dünya tərəfindən, Minsk qrupunun həmsədr ölkələri tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. Dağlıq Qarabağda və işğal edilmiş bütün torpaqlarda baş verən və baş verə biləcək hadisələr bizim daxili işimizdir. Heç bir beynəlxalq təşkilat, yaxud da ki, hansısa bir ölkə bizim daxili işimizə qarışa bilməz.

Bu gün həm danışıqlar prosesində, həm də bölgədə yeni bir vəziyyətin yarandığını, Ermənistanın danışıqlardan boyun qaçırmağa çalışdığını vurğulayan Prezident İlham Əliyev onların buna müvəffəq olmayacaqlarını, nə qədər çalışsalar da, məcbur olub danışıqlara qayıdacaqlarına əminliyini ifadə edib: «Çünki danışıqlar aparılmasa, onlar yaxşı bilirlər ki, vəziyyət hansı istiqamətdə inkişaf edəcək. Əlbəttə ki, aprel döyüşlərindən sonra danışıqlar masasında bizim mövqeyimiz daha da möhkəmlənib və bunu bütün beynəlxalq aləm əyani şəkildə gördü. Əlbəttə, onlar bilirdilər ki, Azərbaycan dövləti Dağlıq Qarabağ problemini istənilən yolla həll edə bilər. Bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə bəyan etmişlər və bu yaxınlarda da bəyanatlar səsləndi ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bunu dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi işğala son qoymaq deməkdir. Çünki status-kvonu Ermənistan dəyişdirməlidir. Onlar işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan çıxarmaqla status-kvo dəyişdiriləcək və sülh üçün əsas yaranacaq».

## Azərbaycan BP ilə əməkdaşlığa böyük önəm verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri Qordon Birreli və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə yeni təyin olunmuş regional prezidenti Qəri Counzu qəbul edib.

Dövlətimizin başçısı ölkəmizin BP ilə əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə və qarşıya qoyulan bütün məqsədlərə nail olunacağına ümidvar olduğunu bildirib. Qordon Birrel BP ilə Azərbaycan arasında əməkdaşlığın vacib məqamlarından danışıb, gələn il «Şahdəniz-2» yatağından çıxarılması nəzərdə tutulan qazın ilk olaraq Türkiyəyə, daha sonra 2020-ci ildə Avropaya ixrac olunmasının önəmini vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

### BU NÖMRƏMİZDƏ

APREL HADİSƏLƏRİ AZƏRBAYCAN DÖVLƏTİNİN QÜDRƏTİNİ, AZƏRBAYCAN XALQININ BİRLİYİNİ GÖSTƏRDİ 2

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI HAQQINDA SAZİŞLƏR XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİ STİMULLAŞDIRIR 3

HƏR BİR VƏTƏNDAŞIN KONSTİTUSİYA BORCU... 4

TİCARƏT FESTİVALLARI DÖVRÜNDƏ ƏDV-NİN QAYTARILMASINA HAZIRLIQ GÖRÜLÜR 5

# Aprel hadisələri Azərbaycan dövlətinin qüdrətini, Azərbaycan xalqının birliyini göstərdi

**Aprelin 3-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb.**



Tədbirdə çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva deyib:

- Hörmətli zabitlər, hörmətli əsgərlər.

Ötən ilin aprel ayının əvvəllərində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Siz, sizin yoldaşlarınız, Azərbaycan əsgərləri bu təxribatın qarşısını aldınız, düşmənə layiqli cavab verdiniz. İşğal altındakı minlərlə hektar Azərbaycan torpağı uğurlu əks-hücum əməliyyatı nəticəsində azad olundu. Bu, Azərbaycanın böyük hərbi qələbəsidir. Azərbaycan dövləti bir daha bütün dünyaya nümayiş etdirdi ki, işğalla heç zaman barışmayacaq və Azərbaycan Ordusu lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir.

Bir il bundan əvvəl azad etdiyiniz torpaqlarda bu gün yeni qəsəbələr salınır və 20 ildən çoxdur ki, öz yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlər yaxın gələcəkdə doğma torpaqlarına qayıdacaqlar. Bu, tarixi bir hadisədir, tarixi qələbədir. Bu gün bütün Azərbaycan xalqı sizinlə fəxr edir.

Aprel hadisələri Azərbaycan dövlətinin qüdrətini, Azərbaycan xalqının birliyini göstərdi. Azərbaycan Ordusu bu gün qüdrətli, lazımi müasir silah və texnika ilə tam təmin olunmuş ordudur. Azərbaycan əsgərləri yüksək peşəkarlıq, vətənpərvərlik, qəhrəmanlıq göstərərək işğal altında olan torpaqların bir qismini azad etdilər.

Aprel döyüşləri zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid oldular, ömürlərini qurban verdilər. Övladını itirmək hər bir valideyn üçün ən böyük faciədir. Heç bir xalq istəməz ki, müharibə olsun. Heç bir ana istəməz ki, oğullar itirsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi Azərbaycan xalqının ürəyində daim yaşayacaq.

Azərbaycan sülhsevər ölkədir. Məhz buna görə biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istəyirik və buna görə 20 ildən çoxdur ki, danışıqlar aparırıq. Lakin heç kim unutmamalıdır ki, Ermənistan Azərbaycanın torpaqlarını sülh yolu ilə işğal etməyib və Azərbaycan bu işğala heç vaxt dözməyəcək. Azərbaycan əsgərləri, Azərbaycan oğulları öz Vətəni yolunda mübarizə aparırlar, döyüşürlər, ömürlərini qurban verirlər, onların mübarizəsi haqq mübarizəsidir. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Münaqişənin və itkilərin səbəbi erməni əsgərinin Azərbaycan torpağında olmasıdır. Mən erməni analara üz tutub söyləmək istəyirəm ki, qoymayın öz balalarınız işğal siyasətinin qurbanları olsun, işğal siyasətinə dəstək verməyin. Münaqişəyə tezliklə son qoyulmalıdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Münaqişə beynəlxalq hüququn normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapmalıdır, işğalçı qüvvələr Azərbaycan torpaqlarını tərk etməlidirlər, ondan sonra regionda sülh bərpa olunacaq və heç bir ana - nə erməni, nə də azərbaycanlı ana oğlunun məzarı üstündə göz yaşını tökməyəcək.

Aprel hadisələri zamanı və ondan sonrakı günlərdə Prezident və mən hospitallarda, xəstəxanalarda olduq. O zaman yaralanmış, xəsarət almış əsgərlərimizə yardım göstərən, onların tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərimizə minnətdarlığımı çatdırmaq istəyirəm. Yaralanmış əsgərlərin demək olar ki, əksəriyyəti onların səyləri və əməyi nəticəsində sağalıb və normal həyat tərzinə qayıdıb və bu gün də Vətəni tam gücləri ilə qorumaq üçün hazırdırlar. Ümumiyyətlə, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanmış, xəsarət almış əsgərlərimizin sağlamlığının bərpasına Azərbaycan dövləti xüsusi diqqətlə yanaşır. Siz Vətən uğrunda vuruşursunuz. Siz yaralanmısınız, xəsarət almısınız. Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin tezliklə normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atmağa hazırdır.

Mənim tapşırığımla sizin hər birinizə fərdi yanaşma tətbiq olunacaq və normal hərəkət dinamikasına yardım edən müasir protezlə təmin olunacaqsınız. Tapşırığıma əsasən xüsusi işçi qrup yaradılıb. Bu qrupda çalışan insanlar həm protezlərin təminatı, həm də gələcək mərhələdə onların texniki xidmətini həyata keçirəcəklər. İyirmi gün ərzində bütün lazımi işlər həyata keçiriləcək və mənə yekun hesabat təqdim olunacaq.

Bir azdan sonra mütəxəssislər bizə bu sahədə ən qabaqcıl texnologiyalar haqqında məlumat verəcəklər. Mən əminəm ki, bu addımlar atılandan sonra sizin normal həyata qayıtmağınız, sağlamlığınızın bərpa olunması daha da sürətlənəcək. Şübhəm yoxdur ki, siz gələcəkdə Azərbaycan üçün, Vətən üçün daha da böyük işlər görəcəksiniz.

Sonda mən sizə və sizin şəxsinizdə bütün Azərbaycan əsgərlərinə bir daha dərin hörmətimi çatdırıram. Sizə uğurlar arzulayıram.

Sonra müdafiə naziri, general-polkovnik Zakir Həsənov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, aprel döyüşlərində yaralanamış zabit Elşən Qarayev çıxış ediblər.

Görüşə yekun vuran Birinci vitse-prezident xanım Mehriban Əliyeva deyib:

- Mən çıxışımda qeyd etdim ki, bu gün Azərbaycan dövləti Azərbaycan əsgərlərinə, Azərbaycan Ordusuna bütün lazımi dəstək göstərməyə qadirdir. Bunu biz nazirlərin çıxışlarında da eşitdik. Mən əminəm ki, torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın hər bir vətəndaşının ən böyük arzusudur.

Biz hamımız çox yaxşı bilirik ki, Azərbaycanın ən böyük problemi məhz bu münaqişədir. Hamımız inanırıq ki, ədalətin bərpa olunacağı gün tezliklə gələcək, torpaqlarımız azad olunacaq, qaçqınlarımız, məcburi köçkünlərimiz öz doğma torpaqlarına, doğma evlərinə qayıdacaqlar.

Əlbəttə, Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin bu işdə əməyi əvəzsizdir. Buna görə dövlətlə yanaşı, hər bir vətəndaşımız, Azərbaycan xalqı o günlər birlik nümayiş etdirdi. Hər kəsdə ruh yüksəkliyi var idi. Hər kəs özünü tamamilə çox güvənli hiss edirdi. Əminəm ki, bu qələbəni hər bir ailə evində qeyd edirdi. Hər bir azərbaycanlının borcudur ki, orduya, əsgərlərə yardım göstərsin. Bir daha deyirəm ki, Azərbaycan dövləti bu yardımı edir və bunu etməyə qadirdir. Dövlətimizin bütün imkanları var, bu yardımı edir və edəcək. Lakin mən hiss edirəm ki, insanlar da bu dəstəyi verməyə hazırdır.

Bir daha demək istəyirəm ki, siz həmin günlərdə əsl qəhrəmanlıq göstərmisiniz. Sizin göstərdiyiniz qəhrəmanlıq, əlbəttə, ilk növbədə, hərbi qələbə idi. Bu qələbə sayəsində torpaqlarımızın bir hissəsi azad olundu. İndi orada qəsəbələr salınır, insanlar öz evlərinə qayıdacaqlar. Amma bu, hərbi qələbə ilə yanaşı, həm də ümumxalq qələbəsidir. Çünki siz insanlara yeni bir nəfəs, yeni bir inam verdiniz. Torpaqlarımızın bir hissəsi işğaldan azad olundu. Yəni, inam yarandı ki, biz bütün torpaqlarımızı işğaldan mütləq azad edəcəyik. Çünki ədalət bərpa olunmalıdır. Cənab Prezident çıxışlarında dəfələrlə söyləyib ki, bizim heç bir dövlətin torpağında gözümüz yoxdur. Bizim əsgərlərimiz başqa dövlətin torpağında deyillər. Bizim oğullarımız doğma torpaqlarını müdafiə edirlər, doğma torpaqlarına görə vuruşurlar və həyatlarını qurban verirlər.

Bu hadisələrdən sonra mən şəhid əsgərlərimizin anaları ilə görüşdüm. Mən bir daha o qadınların - anaların, xanımların, bacıların, ailə üzvlərinin qarşısında baş əyirəm. Çünki onlar elə övladlar böyüdüblər ki, bütün xalq onların ismini söyləyir, onlarla fəxr edir. Şəhid anaları ilə görüşlərdə mən bir daha gördüm ki, belə qadınların yalnız belə oğulları ola bilər. Çünki onlar özləri də qəhrəman anadırlar. Əlbəttə, ana üçün cavan övlad itirməkdən ağır dərd ola bilməz. Hətta o ağır məqamda da deyirdilər: mən fəxr edirəm ki, oğlum Vətən yolunda ömrünü qurban verib, şəhid olub.

Ona görə, mən bir daha demək istəyirəm ki, Azərbaycan dövləti, Azərbaycan xalqı və Azərbaycan Ordusu bu məsələdə tamamilə bir mövqedən çıxış edir. Haqq-ədalət bizim tərəfimizdədir. Əminəm ki, bu münaqişə tezliklə öz həllini tapacaq. Yenə də deyirəm ki, heç bir xalq istəməz ki, müharibə olsun. Əminəm ki, erməni xalqı da istəmir ki, müharibə olsun. Azərbaycan xalqı da istəmir ki, müharibə olsun. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Yalnız və yalnız münaqişənin və itkilərin səbəbi erməni əsgərinin Azərbaycan torpağında olmasıdır. İşğalçı qüvvələr Azərbaycan torpaqlarından çıxmalıdırlar.

Əziz qardaşlar, sizə bir daha dərin minnətdarlığımı və hörmətimi çatdırıram. Nazir qeyd etdi ki, Heydər Əliyev Fondu bu layihədə iştirak edir. Bizim işçilərimiz bu məsələləri tam nəzarət altında saxlayır.

Yəqin ki, sizdə də Heydər Əliyev Fondunun fəaliyyəti haqqında yetərli informasiya var. Bir daha deyirəm ki, bizim Fondun işçiləri hər zaman sizə xidmət etməyə, sizə yardım göstərməyə hazırdır. Müxtəlif hallarda, müxtəlif vəziyyətlərdə, - həyatdır, hər şey ola bilər, - siz Fonda müraciət edə bilərsiniz. Mən sizə söz verirəm ki, hər bir müraciətə baxılacaq və imkan dairəsində çalışacağıq ki, sizə yardım edək.

Bir daha çox sağ olun. İndi mən sizi o biri zala dəvət edirəm. Mütəxəssislər orada bizə yeni, müasir protezlər haqqında məlumat verəcəklər.

Daha sonra «2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi» layihəsinin geniş təqdimatı olub.

# Vergilər Nazirliyində görüş

Vergilər Nazirliyində ticarət festivallarının təşkili ilə əlaqədar Maliyyə Bazarlarına Nəzarət Palatasının, Mədəniyyət və Turizm Nazirliyinin və bankların nümayəndələri ilə görüş keçirilib.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov görüş iştirakçılarına Bakıda ilk dəfə olaraq keçiriləcək ticarət festivallarının («shopping festival») əhəmiyyəti və onların təşkili ilə bağlı məsələlər barədə məlumat verib. Bildirilib ki, ildə iki dəfə təşkil olunması planlaşdırılan ticarət festivallarının keçirilməsində məqsəd turizm baxımından ölkəmizin cəlbediciliyinin yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır.

Görüş iştirakçılarının nəzərinə çatdırılıb ki, «Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına uyğun olaraq, «Baku Shopping Festival»ının iştirakçısı olan iri ticarət obyektlərində aparılan işlər başa çatmaq üzrədir. Ticarət festivalları dövründə alınan mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə ilkin mərhələdə «Park Bulvar», «Port Baku Mall», «Nərgiz Mall», «Metropark», «28 Mall», «Gənclik Mall» ticarət mərkəzlərində xüsusi köşklərin qurulması planlaşdırılır. Ehtiyac olarsa, bu köşklərin sayı artırıla bilər.

Festivalın yüksək səviyyədə və səmərəli təşkili üçün xidmət göstərəcək işçi heyət bayram və istirahət günlərində də işləyəcək. Alıcıların rahatlığı üçün ticarət festivallarına cəlb olunacaq bankların filialları ƏDV-nin qaytarılması sisteminə qoşulacaq.

Görüşdə bankları maraqlandıran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb, Vergilər Nazirliyinin aidiyyəti qurumlarının rəhbər vəzifəli şəxsləri tərəfindən bank nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


# Vergi məbləğlərinin hesablanması

Vergilər Nazirliyi tərəfindən ilk dəfə 2012-ci ildə istifadəyə verilmiş «Vergi kalkulyatoru» adlı elektron xidmət istifadəçilərə yeddi göstərici - ƏDV məqsədləri üçün qeydiyyata alınmamış şəxslərə sadələşdirilmiş verginin hesablanması, avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımasını həyata keçirən şəxslərin sadələşdirilmiş vergisinin hesablanması, mənzil tikintisi ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergisinin hesablanması, fiziki şəxslərin muzdlu işdən əldə olunan aylıq gəlirlərindən verginin hesablanması, yol vergisinin hesablanması, mədən vergisinin hesablanması, vergi borclarına faizlərin hesablanması üzrə vergiləri elektron formada hesablamaq imkanını yaratmışdır. Ötən ildən etibarən isə aşağıdakı vergi məbləğlərinin hesablanması üçün vergi kalkulyatoru vergi ödəyicilərinin istifadəsinə verilib.

**Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər üçün ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi məbləğinin hesablanması**

Bu vergi məbləğinin hesablanması üçün «Ödəyici qrupu» hissəsindən müvafiq seçim edilir. Daha sonra yaşayış sahəsi və qeyri-yaşayış sahəsi xanalarına müvafiq məlumatlar daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən daşınmaz əmlakın yerləşdiyi ərazi seçilir. Bu zaman təklif edilən variantlardan «Bakı şəhəri» seçilərsə, «Zona seçimi» hissəsi aktivləşir və həmin hissənin üzərinə sıxıldıqda «Zona üzrə axtarış» adlı səhifəyə keçid edilərək Bakı şəhərinə uyğun zonalar üzrə axtarış imkanı yaradılır. «Zona üzrə axtarış» səhifəsindəki «Axtarış bölməsi»nə məlumat daxil edilib «Enter» düyməsi sıxılmaqla axtarış edilir, həmin bölməyə heç bir məlumat daxil edilmədikdə isə bütün zonalar ekranda əks olunur. Bu zaman «Zonalar üzrə xəritə»dən də istifadə etməklə axtarış etmək mümkündür. Müəyyən edilmiş zona «Verginin hesablanması» səhifəsindəki «Zona seçimi» bölməsinə daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən digər ərazilər seçildikdə isə «Zona seçimi» bölməsi deaktivləşir. Sonda sadələşdirilmiş verginin məbləği ekranda əks olunur.

**Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş vergi məbləğinin hesablanması**

Bunun üçün «Ödəyici» qrupu hissəsindən müvafiq seçim edilir. «Yaşayış sahəsi» və «Qeyri-yaşayış» sahəsi xanalarına müvafiq məlumatlar daxil edilir, «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən daşınmaz əmlakın yerləşdiyi ərazi seçilir. Bu zaman «Bakı şəhəri» seçildikdə «Zona seçimi» hissəsi aktivləşir və həmin hissənin üzərinə sıxıldıqda «Zona üzrə axtarış» adlı səhifəyə keçid edilərək Bakı şəhərinə uyğun zonalar üzrə axtarış imkanı yaradılır. «Zona üzrə axtarış»dakı «Axtarış bölməsi»nə məlumat daxil edilib «Enter» düyməsi sıxılmaqla axtarış edilir, həmin bölməyə heç bir məlumat daxil edilmədikdə isə bütün zonalar ekranda əks olunur. Bu zaman «Zonalar üzrə xəritə»dən də istifadə etməklə axtarış etmək mümkündür. Müəyyən edilmiş zona «Verginin hesablanması» səhifəsindəki «Zona seçimi» bölməsinə daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən digər ərazilər seçildikdə isə «Zona seçimi» bölməsi deaktivləşir. Sonda sadələşdirilmiş verginin məbləği ekranda əks olunur.

**Torpaq vergisinin hesablanması**

Bunun üçün ilk növbədə torpağın növü seçilməlidir. Əgər «Torpağın növü» bəndindən «Kənd təsərrüfatı torpaqları» seçilərsə, bu zaman torpağın sahəsinin kvadratmetri yazılmalıdır. Bundan sonra torpaq vergisinin məbləği ekranda əks olunur.

Bu torpaq növü üzrə «Təyinatı üzrə istifadə edilən və ya müxtəlif səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları» bəndi aktiv edilərsə, bu zaman ekranda «Ərazi» pəncərəsi açılacaq və buradan torpağın yerləşdiyi ərazi siyahıdan seçilməlidir. Daha sonra keyfiyyət qrupu və torpağın sahəsi qeyd edilməlidir. Torpaq sahəsi biçənək, örüş və ya otlaq olarsa, torpağın sahə ölçüsü də qeyd edilməlidir. Bundan sonra torpaq vergisinin məbləği hesablanır.

«Torpağın növü» siyahısından «Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar» seçildikdə, bu zaman torpağın yerləşdiyi ərazinin sahəsi qeyd edilməli və bundan sonra vergi hesablanmalıdır. Torpağın növü yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar olarsa, bu zaman da torpağın yerləşdiyi ərazi seçilir, daha sonra torpağın sahəsi qeyd edilir. Bundan sonra torpaq vergisinin məbləği ekranda əks olunur.

**Aytən NƏBİYEVA**

# İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər xarici investisiyaların cəlb edilməsini stimullaşdırır



*Zaur Fətizadə,*
*Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru*

Hər bir ölkənin investorları üçün gələcək fəaliyyətlərinin vergi nəticələri ilə bağlı aydınlıq və əminliyin mühüm atributlarından biri ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərdir. İnvestorlar hər hansı bir dövlətə sərmayə qoyuluşları həyata keçirməzdən əvvəl, ilk növbədə, həmin dövlətin investisiya mühitinin əlverişlilik səviyyəsini araşdırırlar. Bu zaman bir çox başqa amillərlə yanaşı, investisiyalar üçün əlavə hüquqi təminatların mövcudluğu, o cümlədən ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər mühüm rol onayır.

İqtisadiyyatın sürətli templə inkişaf etməsində xarici investisiyaların rolu çox əhəmiyyətlidir. Azərbaycan iqtisadiyyatında müqayisəli üstünlüklərin mövcudluğu, qeyri-neft sektorunun rolunun davamlı şəkildə genişlənməsi və istehlakın artması əcnəbi investorların nəzərindən qaçmır. Bu baxımdan, ikiqat vergitutma ilə bağlı sazişlərin imzalanması sözügedən prosesə mühüm bir təkandır.

İkiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlərin ölkələr arasında hüquqi-iqtisadi müstəvidə də əhəmiyyəti olduqca böyükdür. Belə sazişlər ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verməklə və sazişi imzalamış ölkənin şirkətləri və iş adamları üçün geniş imkanlar açmaqla yanaşı, ölkələrin hüquqi prinsiplərə və investisiyaların müdafiəsinə sadiqliyini nümayiş etdirən böyük siyasi əhəmiyyətə də malikdir. Ümummilli lider Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyev daim sözügedən sazişlərin siyasi və iqtisadi əhəmiyyətini, bu sazişlərin xarici investisiyaların müdafiəsinə və təşviqinə verdiyi önəmi qeyd etmişlər.

İkiqat vergitutma bir şəxsin eyni gəlirinin birdən artıq dövlət tərəfindən eyni növlü vergiyə cəlb edilməsidir. Bu, dövlətlərarası mal və xidmət ticarətinə, kapitalın, texnologiyanın və şəxslərin sərbəst hərəkətinə mənfi təsir etməklə, dövlətlərarası iqtisadi əlaqələrin inkişafına maneə törədir. Təbii ki, sərmayədarlar digər dövlətdə investisiya qoyaraq kommersiya, sənaye, maliyyə və ya digər fəaliyyətlərlə məşğul olmağa başlamazdan və ya digər dövlətin hüquqi və fiziki şəxsləri ilə təsərrüfat əqdləri və əməliyyatlarına daxil olmazdan əvvəl eyni gəlirinin bu dövlətlərin hər ikisində vergiyə cəlb edilməyəcəyindən, onun üzərinə əlavə vergi yükünün düşməyəcəyindən və bütün bunların bazardakı mövqeyi və rəqabət qabiliyyətinə mənfi təsir etməyəcəyindən əmin olmağa çalışırlar. Buna görə də ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş iki dövlət arasında iqtisadi əlaqələrin təməlini təşkil edən əsas beynəlxalq sənədlərdəndir və investorların diqqət yetirdiyi mühüm hüquqi elementdir. Bu cür sazişlər olmadığı halda isə hətta böyük həcmli investisiya güzəştləri, stimullaşdırma tədbirlərinin əhəmiyyəti azalır. Çünki xarici investisiyalar üçün maksimum dərəcədə əlverişli şərait təmin edilsə belə, investor əldə etdiyi gəliri mənbə dövlətindən çıxararkən əlavə vergi ödəməli, öz ölkəsində isə təkrarən eyni gəlirdən vergi ödəməli olur. Buna görə də ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər xarici investisiyaların cəlb edilməsi üçün mühüm əhəmiyyət daşıyır.

İkiqat vergitutmanın əsas yaranma səbəbləri eyni bir şəxsin hər iki dövlətdə rezident hesab edilərək onun bütün gəlirlərinin vergiyə cəlb edilməsi, yaxud həmin gəlirin yarandığı dövlətdə ödəmə mənbəyində vergiyə cəlb olunduqdan sonra rezidentlik dövlətində həmin gəlirdən bir daha vergi ödənilməsidir. İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin mahiyyəti bir şəxs digər dövlətdən gəlir əldə edən zaman həmin gəlir üzrə vergitutma hüquqlarının iki dövlət arasında bölüşdürülməsi ilə eyni gəlirin iki dəfə vergiyə cəlb edilməsinin qarşısının alınmasıdır.

Hüquqların bölüşdürülməsi iki yoldan biri ilə:
- ya hər hansı bir gəlir növünün vergiyə cəlb olunması üzrə müstəsna hüququn yalnız rezidentlik dövlətinə verilməsi;
- ya da gəlirin əldə edildiyi dövlətdə vergiyə cəlb edilməsi və sonradan həmin verginin rezidentlik dövlətində çıxılma və ya azadolma vasitəsilə nəzərə alınması yolu ilə həyata keçirilir.

Azərbaycan Respublikası tərəfindən digər dövlətlərlə imzalanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərdə xaricdə ödənilmiş verginin nəzərə alınması metodu Vergi Məcəlləsinin 127-ci maddəsində nəzərdə tutulmuş çıxılma metoduna əsaslanır. Məsələn, cari ilin fevral ayında Danimarka Krallığı ilə imzalanmış sonuncu ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiyaya nəzər salaq. Bu saziş, ilk növbədə, Azərbaycan rezidentlərinin Danimarkada, Danimarka rezidentlərinin isə Azərbaycanda iqtisadi fəaliyyətləri zamanı əldə etdikləri gəlirlərdən eyni verginin iki dəfə ödənilməsinin qarşısını almağa xidmət edir. Bunun üçün müəyyən gəlir növləri üzrə müstəsna vergitutma hüququ mənbə dövlətinə verilir, müəyyən gəlir növləri isə onların əldə edildiyi dövlətdə vergiyə cəlb olunaraq, sonradan rezidentlik dövlətində nəzərə alınır.

Bundan əlavə, Konvensiya hər iki dövlətin vergi orqanları arasında vergidən yayınma ilə mübarizə sahəsində əməkdaşlıqla bağlı müddəaları nəzərdə tutur, xüsusilə səlahiyyətli orqanlar arasında sorğu əsasında məlumat mübadiləsinin prinsiplərini tənzimləyir. Yəni dövlətlərdən hər hansı birinin vergi orqanı vergidən yayınma ilə bağlı konkret hallarla bağlı araşdırma apararkən, yaxud adi fəaliyyəti zamanı (məsələn, vergi yoxlaması çərçivəsində bu cür şübhəli hallarla rastlaşarsa) aidiyyəti məsələlərlə bağlı digər dövlətin vergi orqanına sorğu göndərməklə məlumat əldə edə bilər.

Bununla yanaşı, ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər həm də diqqətdə saxlanılaraq imzalanmadan sonrakı illərdə zərurət yarandığı hallarda təkmilləşdirilir. Məsələn, bu günlərdə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan və Qazaxıstan arasında ikiqat vergiyə cəlb edilməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınma hallarının qarşısının alınması haqqında sazişə əlavə və dəyişikliklər edilməsi barədə protokol imzalandı. Qazaxıstanla müvafiq saziş hələ 1996-cı ildə imzalanmışdı. Həmin vaxtdan keçən dövr ərzində həm hər iki dövlətin vergi qanunvericiliklərində, həm də beynəlxalq vergitutmanın ümumi qəbul edilmiş prinsiplərində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Buna görə də sözügedən sazişin müddəalarının aktuallaşdırılması və yeni tələblərə uyğunlaşdırılması zərurəti yarandığından, ona əlavə və dəyişikliklər edilməsini nəzərdə tutan protokol hazırlanaraq imzalandı. Bu protokola əsasən, sazişin tətbiq olunduğu vergilərin siyahısı hər iki dövlətin tətbiq etdiyi vergilərlə uyğunlaşdırılmalı, saziş üzrə səlahiyyətli orqanlar yenidən dəqiqləşdirilməli, vergidən yayınmanın qarşısının alınması məqsədilə əlavə müddəalar artırılmalı, iki ölkə arasında məlumat mübadiləsinin daha çevik və müasir beynəlxalq standartlara uyğun həyata keçirilməsi məqsədilə təkmilləşdirilməli, OECD-nin şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun tələblərinə uyğunlaşdırılmalı və s. tədbirlər həyata keçirilməlidir.

Hazırda Azərbaycan Respublikası ikiqat vergitutmanın aradan qaldırılması haqqında 53 dövlətlə saziş imzalamışdır: onlardan 49-u qüvvəyə minmişdir və tətbiq edilməkdədir. Bu sazişlər ölkəmizin bütün əsas iqtisadi və ticarət tərəfdaşlarını, o cümlədən Azərbaycanda əhəmiyyətli investisiyalara malik olan dövlətləri əhatə edir. Bundan əlavə, 5 dövlətlə (Sinqapur, İrlandiya, Slovakiya, Malayziya və Mərakeş) müvafiq sazişlər imzalanmaya hazırdır, 8 dövlətlə (Albaniya, Qırğızıstan, Banqladeş, Hindistan, Suriya, Türkmənistan, Portuqaliya və Oman) müzakirələr davam etdirilir, 10-dan artıq dövlətə isə layihə təqdim edilib və danışıqların başlanması gözlənilir.

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ DİGƏR DÖVLƏTLƏR ARASINDA İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASINA DAİR SAZİŞLƏRİN CARİ STATUSU**
**(5 aprel 2017-ci il tarixinə)**

**QÜVVƏYƏ MİNMİŞ SAZİŞLƏR**

| | | | |
|---|---|---|---|
| Türkiyə | Birləşmiş Krallıq | Pakistan | Norveç |
| Özbəkistan | Qazaxıstan | Gürcüstan | Rusiya |
| Polşa | Moldova | Ukrayna | Avstriya |
| Belarus | Fransa | Rumıniya | Litva |
| Belçika | İtaliya | Almaniya | Kanada |
| Çin | Yaponiya | Finlandiya | Latviya |
| Çexiya | İsveçrə | Lüksemburq | Birləşmiş Ərəb Əmirlikləri |
| Tacikistan | Qətər | Estoniya | Bolqarıstan |
| Macarıstan | Koreya | Niderland | Küveyt |
| Yunanıstan | İran | Serbiya | Sloveniya |
| Xorvatiya | Bosniya və Herseqovina | Monteneqro | Makedoniya |
| Səudiyyə Ərəbistanı | Vyetnam | San-Marino | İsveç |

**İMZALANMIŞ, LAKİN QÜVVƏYƏ MİNMƏMİŞ SAZİŞLƏR**

İordaniya, İspaniya, Malta, İsrail, Danimarka

*QEYD:* İspaniya, İordaniya və Malta ilə imzalanmış sazişlər Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir. Qarşı tərəflərdə də analoji prosedurların bitməsi barədə diplomatik kanallarla məlumat daxil olduqdan sonra sazişlər qüvvəyə minəcəkdir. İsrail dövləti və Danimarka Krallığı ilə imzalanmış saziş hər iki dövlət tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minəcəkdir.

**RAZILAŞDIRILMIŞ VƏ İMZALAMAYA HAZIR OLAN SAZİŞLƏR**

Sinqapur, Malayziya, Slovakiya, İrlandiya, Mərakeş

**MÜZAKİRƏLƏR DAVAM ETMƏKDƏ OLAN SAZİŞLƏR**

| | | | |
|---|---|---|---|
| Albaniya | Banqladeş | Qırğızıstan | Suriya |
| Hindistan | Türkmənistan | Portuqaliya | Oman |

**MODEL LAYİHƏSİNİN TƏQDİM EDİLDİYİ ÖLKƏLƏR**

| | | | |
|---|---|---|---|
| Argentina | İndoneziya | İraq | Filippin |
| Kolumbiya | Livan | Misir | Peru |
| Tailand | Tunis | Uruqvay | Andorra |

# Əməkhaqqından vergi tutulması

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyevin şərhinə əsasən, fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqqı olmaqla iki hissədə vergi tutulur: «Fiziki şəxslərin gəlirindən, Vergi Məcəlləsinin 101.1-ci maddəsinə əsasən, aylıq gəlir 2500 manata qədər olduqda 14% faiz, 2500 manatdan yuxarı olan hissəsinin 25%-i miqdarında vergi tutulur. Əməkhaqqı 2500 manata qədər olduqda əməkhaqqından ölkə üzrə yaşayış minimumu (155 AZN, 2017-ci il) çıxıldıqdan sonra qalan məbləğdən 14% gəlir vergisi tutulur. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir».

Ə.Quliyevin sözlərinə görə, milli qəhrəmanların, müharibə əlillərinin, müharibə veteranı adı almış şəxslərin və s. şəxslərin vergi tutulmalı olan aylıq gəliri 400 AZN məbləğində, I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 AZN məbləğində azaldılır.

Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin vergi tutulmalı olan aylıq gəliri 100 AZN məbləğində azaldılır. Himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və ya tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 AZN məbləğində azaldılır.

«Sosial sığorta haqqında» Qanunun 14-cü maddəsinə əsasən, əmək müqaviləsi ilə işləyənlər üçün hesablanmış əməkhaqqının 3%-i miqdarında məcburi dövlət sığorta haqqının ödənilməsi nəzərdə tutulmuşdur. Qeyd edək ki, əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş Elektron Hökumət Portalında şəxsi kabinetini yaratmaqla işlədiyi illər ərzində müəssisə tərəfindən onun əvəzinə vergi və DSMF ödənilib-ödənilmədiyini və eyni zamanda illər ərzində ödənilmiş vergi və sosial sığorta haqları barədə məlumat əldə edə bilər.

Bir neçə misal üzərində gəlir vergisi və sosial sığorta haqqının hesablanması qaydasına baxaq.

***Misal 1:*** Fiziki şəxsin aylıq gəliri 450 manat olduğu halda, əməkhaqqından aşağıdakı qaydada vergi tutulacaq:
*Gəlir vergisi: 450-155=295*14%=41.3 AZN*
*DSMF: 450*3%=13.5 AZN*
Deməli, vergi çıxıldıqdan sonra ələ çatan pul: 450-(41.3+13.5)=395,2 AZN

***Misal 2:*** Fiziki şəxs məcburi köçkün olduğu halda və əməkhaqqı 450 manat təşkil etdikdə, əməkhaqqından aşağıdakı qaydada vergi tutulacaq:
*Gəlir vergisi: 450-155-100=195*14%=27,3 AZN*
*DSMF: 450*3%=13,5 AZN*
Vergilər çıxıldıqdan sonra ələ çatan pul: 450-(27,3+13,5)=409,2 AZN

**Fəxriyyə İKRAMQIZI**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları bu il aprelin 1-nə **4.432,7 milyon** ABŞ dolları təşkil edib. Bu göstərici martın 1-i ilə müqayisədə **63,4 milyon** dollar çoxdur.
- Aprelin 1-nə Azərbaycanda pul bazası **7.277,5 milyon** manat təşkil edib. Mərkəzi Bankdan verilən məlumata görə, bu, ötən ayın əvvəli ilə müqayisədə 290,5 milyon manat çoxdur.
- Mərkəzi ofisi Aberdində yerləşən «EnerMech» neft və qaz xidmətləri şirkəti Xəzər dənizi regionunda dəyəri ümumilikdə **40 milyon** funt-sterlinq olan yeni müqavilələr imzalayıb.
- Azərbaycan İpoteka Fondunun xəttilə **18 min 758** ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ **778 milyon 956 min 830** manatdan çoxdur.
- Aprelin 25-də Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın özəlləşdirilməsi ilə bağlı yeni hərraca ümumilikdə **20** səhmdar cəmiyyəti çıxarılıb.
- Bu il Sahibkarlığa Kömək Milli Fondu investisiya layihələrinin maliyyələşdirilməsinə **21 mln.** manat güzəştli kredit verib.
- «Elektron hökumət» portalında elektron xidmətlərin sayı **433**-ə çatdırılıb.
- 2017-ci ilin birinci rübü ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən **5180** «Yaşıl kart» beynəlxalq sığorta müqaviləsi bağlanılıb.
- Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində cari ilin birinci rübündə əlavə olaraq **71.852** nəfərə fərdi şəxsi hesab açılıb ki, bu da ötən ilin eyni dövrü (45.837 nəfər) ilə müqayisədə **26.015** nəfər və ya **56,8%** çoxdur.

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Nağdsız qaydada aparılan ödəniş

***ƏDV qeydiyyatında olan müəssisə tərəfindən ay ərzində elektrik enerjisinə görə borcun hansı hissəsi nağd qaydada ödənilə bilər?***

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə əsasən, bu Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qanunun 3.4.3-cü maddəsinə əsasən, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar yalnız nağdsız qaydada həyata keçirilir.

**Qeyd olunanlara əsasən:**
Müəssisə tərəfindən elektrik enerjisinə görə dövlət mülkiyyətində olan hüquqi şəxsə aparılan ödəniş Qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq, yalnız nağdsız qaydada həyata keçirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Hər bir vətəndaşın Konstitusiya borcu...

Vergi qanunvericiliyinin pozulması vergi borcunun yaranmasına gətirib çıxarır. Yaranmış vergi borclarını vaxtında ödəməyən vergi ödəyiciləri isə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən, xeyli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslər 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 1000 manatdan 2000 manatadək cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bu əməl mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya onlar külli miqdarda (50.000 manatdan yuxarı məbləğ) vergini büdcədən yayındırdıqda üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

Dünyanın bütün ölkələrində vergi öhdəliklərinin icrasından yayınmaq, vergi borcuna etinasız yanaşmaq məsuliyyət yaradır və bir sıra dövlətlərdə daha sərt cəzalar tətbiq olunur. Xüsusən vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs qoyulması dünyada vergi intizamının yüksək səviyyədə saxlanmasının ən güclü mexanizmi hesab olunur.

Bəzən məlumatsızlıqdan, bir sıra hallarda isə məsuliyyətsizlikdən meydana çıxan problemlərin yaranmaması üçün Vergilər Nazirliyi bütün zəruri tədbirləri həyata keçirir. Vergi ödəyicilərinin işini asanlaşdırmaq məqsədilə həyata keçirilən maarifləndirmə və məlumatlandırma işləri mütəmadi xarakter daşıyır. Vergi inzibatçılığının və vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi nəticəsində vergi ödəyicilərinə vergi borclarının yaranma səbəbləri, vergi borclarının məbləği, ödənilmə qaydaları haqqında daha asan yollarla məlumat almaq imkanları yaradılmışdır. İndi vergi ödəyiciləri vergi orqanına yazılı müraciət etmədən vergi borcu barədə məlumat ala bilirlər.

**İlk və daha asan metod** «195» Çağrı Mərkəzinə zəng edib «1» düyməsi ilə Vergilər Nazirliyinə qoşulduqdan sonra «3» düyməsinin seçilməsi və daha sonra VÖEN-i daxil edib «#» düyməsini sıxmaqla həmin tarixə vergi borcu barədə məlumatı əldə etməkdir.

**İkinci metod:** İnternet Vergi İdarəsinə daxil olmaqla vergi ödəyicisi ona məxsus istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə «İnternet Vergi İdarəsi»nin «E-bəyannamə, ƏDV-DH və ŞHV» (https://login.e-taxes.gov.az/login/) bölməsinə daxil olub, sonra «Məlumat axtar» altbölməsindəki «Şəxsi hesab vərəqəsi»nə qoşulmaqla öz öhdəlik və borcu ilə bağlı məlumatları əldə edə bilər.

Üçüncü metod isə Vergilər Nazirliyinin təqdim etdiyi «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşularaq (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatların əldə edilməsidir. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes (məsələn: *195*00000541*121756#yes) yığmaqla qeydiyyatdan keçmək tələb olunur.

Xidmətə abunə olduqdan sonra qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərməklə 21 sayda vergi öhdəlikləri barədə məlumatı SMS vasitəsilə almaq mümkündür.

Xidmətə abunə olmadıqda isə qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə müvafiq rəqəmləri yazıb SMS göndərməklə (1 - dövlət büdcəsinə olan vergi borcu, 2 - təqdim edilməli bəyannamələr, 3 - fəaliyyətinin aktiv və ya dayandırılmış olması, 4 - elektron qutuda oxunmamış məktubların olub-olmaması və 5 - qeydiyyatda olan təsərrüfat subyektləri barədə) məlumat almaq mümkündür.

**Rəşad SADIQOV**



Vergi inzibatçılığının və vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi nəticəsində vergi ödəyicilərinə vergi borclarının yaranma səbəbləri, vergi borclarının məbləği, ödənilmə qaydaları haqqında daha asan yollarla məlumat almaq imkanları yaradılmışdır

# Mərkəzi Bankda Girov Fondu yaradılır

## Fond ödəniş kartları ilə aparılan əməliyyatların davamlılığını təmin edəcək

Azərbaycan Mərkəzi Bankı (MB) ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə banklararası hesablaşmaların davamlılığını təmin etmək məqsədilə Girov Fondu yaradır. Məqsəd ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə son hesablaşmaların başa çatdırılmasında etibarlılığı təmin etmək, qabaqcıl ölkələrin plastik kart bazarındakı müasir metodların tətbiq edilməsidir. Bununla bağlı istifadə olunacaq mexanizm və hesablaşma qaydası barədə banklarla müzakirələr aparılır, ümumi razılıq əldə edildikdən sonra yekun sazişin bağlanılması və layihənin tətbiqinə başlanılması nəzərdə tutulur.

Hazırda istifadə olunan mexanizm banklardan daha çox likvidlik tələb etməklə yanaşı, likvidlik riskini tam aradan qaldırmır. Ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə son hesablaşmaların başa çatdırılmaması riskini azaltmaq üçün MB bankın müxbir hesabında müvafiq məbləğdə vəsait bronlaşdırsa da, bankda qısamüddətli likvidlik problemi yarandığı halda, risk yaranır. Təqdim edilən yeni mexanizm ilə bankın hesabında vəsait olmadıqda, yaxud çatmadıqda hesablaşmalar Girov Fondunun hesabından istifadə edilməklə başa çatdırılacaq. Hər hansı bankın xeyrinə Fonddan istifadə edilmiş məbləğin geri ödənilməsi üçün həmin bank tərəfindən günün sonunadək müxbir hesabında vəsait təmin olunmalıdır. Əks halda, növbəti gün Mərkəzi Bank tərəfindən həmin vəsait bankın müxbir hesabından mübahisəsiz qaydada silinir. Bu modelin daha bir üstün cəhəti isə banklardan əvvəlki modelə nisbətən son hesablaşmaların davamlılığının təmin edilməsi üçün iki dəfə az vəsaitin tələb olunmasıdır.

Layihəyə əsasən, hər bir bankın ödəniş kart istifadəçilərinin digər bankların bankomat, POS-terminal və elektron ticarət şəbəkəsində apardıqları əməliyyatların həcmindən və həmin bankın müxbir hesabındakı pul vəsaitindən asılı olaraq müvafiq formula uyğun, aylıq əsasda MB tərəfindən hesablanaraq banklara bildiriləcək. Banklar hər ayın ilk iş günü ərzində həmin vəsaiti Girov Fondunun hesabına köçürəcək.

Ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə son hesablaşmaların başa çatdırılması üçün bankın müxbir hesabında kifayət qədər vəsait olmadığı halda, çatışmayan məbləğ MB tərəfindən Girov Fondu hesabından silinəcək və bu haqda iştirakçıya məlumat veriləcək. Fonddakı pul vəsaitindən istifadə etmiş bank gün ərzində həmin vəsaiti qaytardıqda götürülmüş məbləğə faiz hesablanmayacaq. Bank istifadə edilmiş vəsaiti həmin gün qaytarmadıqda, növbəti gün MB tərəfindən, hesablanmış faiz məbləği (MB-nin uçot dərəcəsi ilə) də daxil olmaqla, vəsait bankın müxbir hesabından akseptsiz qaydada silinir. Fondun vəsaitindən istifadəyə görə bankdan tutulmuş haqq MB tərəfindən iştirakçıların Fonda ödədiyi məbləğə proporsional qaydada onlar arasında bölüşdürülüb bankların müxbir hesablarına daxil ediləcək. Fondun hesabından istifadə edən iştirakçı müflis elan olunduğu halda, MB həmin vəsaiti və ona hesablanmış faiz məbləğini «Banklar haqqında» Qanunun 73-cü maddəsinə uyğun olaraq, onun müxbir hesabından akseptsiz qaydada tutub Girov Fonduna yönəldəcək.

**ELBRUS**

# «ABAD» – insanların həyatına rifah gətirir

Ölkəmizdə vətəndaşlara xidmət və sosial rifahın daha da yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Kiçik və orta sahibkarlığa kömək məqsədilə müxtəlif sahələrin inkişaf etdirilməsi üçün iri layihələr həyata keçirilir, investisiyalar cəlb olunur, bölgələrdə istehsal müəssisələri tikilir. Bu istiqamətdə işlərə təkan vermək məqsədilə ötən il daha bir qurum - «ABAD» mərkəz yaradıldı.

Dilimizdə yeni vətəndaşlıq hüququ qazanan «ABAD» nəyi ifadə edir? Onun yaradılmasında məqsəd nədir? «ABAD»ın publik hüquqi şəxsin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Nərmin Abbaszadənin sözlərinə görə, «ABAD» - Ailə Biznesinə Asan Dəstək qurumunun adının abbreviaturasıdır: «Ölkədə istehsal potensialının genişlənməsi və ailə bizneslərinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23 sentyabr 2016-cı il tarixli fərmanı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ABAD» publik hüquqi şəxsi yaradılıb. «ABAD» layihəsinin məqsədi ailə təsərrüfatlarının inkişafına yardım göstərmək, həmçinin rəqabətə dayanıqlı, keyfiyyətli və dünya standartlarına cavab verən məhsullar istehsal edib satışını təşkil etməkdir. «ABAD» pilot layihədir. Onun həyata keçirilməsi üçün ilk regional mərkəz tərəvəzçilik, sənətkarlıq kimi sahələr üzrə inkişaf etmiş rayonlardan olan Masallıda «ASAN həyat» kompleksi yaradılmışdır. Hazırda Balakən rayonunda ikinci «ABAD» mərkəzin işə salınması istiqamətində işlər görülür. «ABAD»ın fəaliyyət istiqamətləri ilkin mərhələdə ərzaq məhsullarının istehsalı, habelə sənətkarlıq məhsullarının brendləşdirilməsi və satışı kimi prioritet sahələrlə müəyyən olunmuşdur. Ərzaq məhsulları sahəsində ət, süd, meyvə və tərəvəzin istehsalı nəzərdə tutulur. Buraya ət məhsulları (kolbasa), mürəbbə və cem, turşu, ağartı məhsullarının istehsalı daxildir. Gələcəkdə bu siyahı genişləndiriləcək. Həmin məhsullar öz yüksək keyfiyyəti ilə fərqlənəcək. Müraciət olunmuş sahə üzrə vətəndaşın istehsal təcrübəsi, xammal ehtiyatı, işgüzarlıq və sair bir sıra meyarlar vardır və həmin meyarlara əsasən «ABAD» ailəsinə qoşulmaq olar. İlk mərhələdə «ABAD» mərkəzlərinin fəaliyyət istiqaməti kimi kiçik və orta sahibkarlıq təsərrüfatlarına yardım etmək nəzərdə tutulmuşdur».

«ABAD» mərkəzi layihədə iştirak edən vətəndaşlara bir sıra xidmətlər göstərir. Bunlara seçilmiş sahə üzrə istehsalı həyata keçirmək üçün müasir standartlara cavab verən avadanlıqların vətəndaşın istifadəsinə verilməsi, məhsulun «bir pəncərə» prinsipi əsasında uyğunluq və gigiyena sertifikatı almasının təşkili, istehsal yerinin kommunal təchizatının təşkil edilməsində hüquqi yardım, məhsulun qablaşdırılması, ailə brendinin yaradılması, dizayn və məhsul etiketlərinin hazırlanması, məhsulun reklamının təşkili, maliyyə hesabatlarının aparılması, daşınma xidməti və məhsulların satışı kimi xidmətlər daxildir. Nağd formada maliyyə yardımları nəzərdə tutulmasa da, sahibkarın qabaqcadan maliyyə ayırmalı olduğu istehsal proseslərini «ABAD» həyata keçirir. Buna misal olaraq, istehsal avadanlıqlarının istifadəyə verilməsini, məhsulların brendləşdirilməsini, dizaynın, reklamın, məhsulların daşınmasının və satışının təşkilini göstərmək olar.

«ABAD» vasitəçi rol oynayaraq məhsulların satışını da təşkil edir, yəni satış bazarlarını araşdırır və məhsullar üçün satış nöqtələri ilə müqavilələr bağlayır. İstehsal olunmuş məhsul vətəndaş tərəfindən «ABAD» mərkəzinin rayon üzrə məhsul yığımı anbarına təhvil verilir. Bundan sonra «ABAD» məhsulun satış bazarlarına daşınmasını və satışının təşkilini həyata keçirir. Eyni zamanda, vətəndaşlar məhsullarının bazarlarda satış dinamikasını da izləyə biləcəklər.



N.Abbaszadə layihə hazırlandığı vaxtdan bu günə qədər bazar araşdırmalarının davam etdiyini və bu fəaliyyətin həyata keçirilməsinin təcrübəli mütəxəssislər tərəfindən aparıldığını bildirmişdir: «Həm daxili, həm də xarici bazarlarda ailə təsərrüfatı məhsullarına tələb böyükdür. Lakin bu məhsulların böyük bazarlara çıxarılmasında ailə təsərrüfatı subyektlərinin bir sıra çətinlikləri var. Burada istehsal məhsullarının keyfiyyət və qablaşdırma standartları əsas şərtdir. «ABAD» mərkəzinin əsas məqsədi tələb olunan kənd təsərrüfatı məhsullarının fərqli dadla, lakin daha yüksək gigiyenik tələblər və keyfiyyətli formada, eyni zamanda xüsusi standarta uyğun qablaşdırmada böyük satış bazarlarına çatdırılmasını təmin etməkdir. Bu məqsədlə «ABAD» tərəfindən həmin keyfiyyət standartlarının təmin edilməsinə daimi nəzarət olacaqdır».

Müsahibimiz onu da qeyd etdi ki, «ABAD» bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq edir: «Əməkdaşlıq çərçivəsində ailələrin biznesə cəlb edilməsini təşviq etmək üçün bir ailənin istehsal avadanlıqları ilə təchiz olunmuş ət məhsulları istehsalı konteyneri ilə təmin edilməsində UNDP maliyyə dəstəyi göstərmişdir. Rəğbət doğuran məqamlardan biri də budur ki, «ABAD»ın fəaliyyət və əhatə dairəsi genişlənir. Buraya qoşulan ailələrin məhsullarının nümayişini həyata keçirmək üçün Novruz bayramında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində «ABAD» sənətkarlıq mərkəzi fəaliyyətə başladı. Bu sahədə ilkin olaraq Masallı, Balakən, İsmayıllı, Şəki və Bakı şəhərindən ümumilikdə sənətkarlıqla bağlı 63, kənd təsərrüfatı sahəsi üzrə isə 30 ailə seçilmişdir. «İçərişəhər» Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) sosial layihələrə dəstəyi çərçivəsində qurulmuş mərkəzdə ilkin mərhələdə «ABAD» sənətkarlıq mərkəzində 63 ailənin 500 adda 2000-dən çox sənət nümunəsi, 5 ailənin isə 10 adda kənd təsərrüfatı məhsulları (cem, mürəbbə, bal) satışa çıxarılmışdır».

İqtisadçı alim Pərviz Heydərovun rəyinə görə, bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi artıma əsas payı kiçik və orta sahibkarlar verdiyi üçün məhz onların fəaliyyəti həlledici rola malikdir: «Ona görə də «ABAD» mərkəzlərinin layihələrinin həyata keçirilməsi, bu layihələrin maliyyələşdirilməsi məqsədilə fondun yaradılması, layihələr üçün ailə təsərrüfatlarının, kiçik və orta sahibkarların müəyyənləşdirilməsi, təsərrüfat məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadə edilməsinə şərait yaradılması, biznes planlarının hazırlanması, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi kimi tədbirlər ölkədə qeyri-neft sektorunun daha da möhkəm təməl üzərində mövqe tutmasına birbaşa yardım göstərəcək».

**Fəxriyyə İKRAMQIZI**

# Ticarət festivalları dövründə ƏDV-nin qaytarılmasına hazırlıq görülür

**Azərbaycan Prezidentinin 2017-ci il 20 fevral tarixli fərmanı ilə «Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib.**

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin əməkdaşı, ticarət festivalları dövründə Vergilər Nazirliyi tərəfindən görüləcək işlərin əlaqələndirilməsi üzrə məsul şəxs Tural Hüseynovun qəzetimizə verdiyi açıqlamaya əsasən, ƏDV-nin qaytarılması bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda tətbiq edilir, nağd ödəniş və ya bank kartına (və ya hesabına) köçürmə yolu ilə həyata keçirilir. Qaytarılmalı məbləği malların alındığı gün ərzində müvəkkil bank geri qaytarır və bu prosesin sonrakı günlərə saxlanılmasına yol verilmir.

Aksizli mallara, ərzaq mallarına, dərman preparatları və tibbi ləvazimatlara, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə bu qayda şamil edilmir.

Qaydaya əsasən, ticarət festivalı dövründə alıcı aldığı malların dəyərini ödəmək məqsədilə kassaya yaxınlaşdıqda satıcı ondan ƏDV-nin qaytarılması hüququndan istifadə etmək barədə istəyinin olub-olmadığını dəqiqləşdirir, alıcı bu hüququndan istifadə etmək istədikdə satıcı ona qaydalar barədə ümumi məlumat verir. Alıcı qismində iştirak edən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, öz seçiminə uyğun olaraq, aldığı mallara görə ödənilmiş ƏDV-nin bu qaydanın tələbləri və ya «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması qaydası»nın tələbləri çərçivəsində ölkə ərazisini tərk edərkən qaytarılmasını tələb edə bilər.

Alıcı tərəfindən ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istəyi bildirildikdən sonra satıcı alıcı haqqında məlumatları özündə əks etdirən elektron vergi hesab-fakturasını (e-VHF-ni) Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-faktura sistemi vasitəsilə tərtib edir və həmin məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür. Ticarət festivalı dövründə alınmış mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə ƏDV köşkündə müəyyən olunmuş ardıcıllıqla alıcı malların e-VHF-ni vergi orqanının əməkdaşına təqdim edir. e-VHF-nin məlumatları vergi orqanı tərəfindən vahid məlumat bazasında yoxlanıldıqdan sonra avtomatik risk qiymətləndirməsi aparılır. Yoxlamanın nəticələrindən asılı olaraq, sual yoxdursa, vergi orqanı əməkdaşı alıcıya qaytarılacaq ƏDV məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparır, onu möhürlə təsdiqləyərək alıcıya təqdim edir və bu barədə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür. Müvəkkil bank vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq müəyyən edilmiş müddətdə milli valyutada nağd ödəniş və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə milli və ya xarici valyutada) bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır. Alıcının istəyinə uyğun olaraq ƏDV-nin qaytarılması bank kartına (və ya hesabına) köçürmə qaydasında həyata keçirildiyi təqdirdə, alıcı vergi orqanı tərəfindən təsdiqlənmiş e-VHF-nin bir nüsxəsini ƏDV köşkündə bu məqsəd üçün yaradılmış xüsusi qutuya atır.

Operatorun göstərdiyi xidmətlərə görə alıcıya ödəniləcək ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı tutulur.

Müvəkkil bank ticarət festivalı dövründə bu qaydaya əsasən qaytarılmış ƏDV məbləği barədə məlumatı nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra 5 iş günü müddətində Vergilər Nazirliyinə, həmçinin Mədəniyyət və Turizm Nazirliyinə təqdim edir. Vergilər Nazirliyi nəzərdə tutulan məbləğə dair rəyini müddət başa çatdıqdan sonra 5 iş günü ərzində Maliyyə Nazirliyinə təqdim edir, Maliyyə Nazirliyi nəzərdə tutulmuş rəy daxil olduqdan sonra 3 iş günü müddətində həmin məbləğin müvəkkil banka köçürülməsini Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan ƏDV üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına təmin edir.

Ticarət festivalları dövründə ƏDV köşklərinin fəaliyyətinin çevik şəkildə təşkili məqsədilə qərargah, o cümlədən Vergilər Nazirliyinin və aidiyyəti departamentlərin əməkdaşlarından ibarət qruplar yaradılmışdır. Ticarət festivallarının keçirilməsi ilə əlaqədar ƏDV köşklərində vergi orqanı əməkdaşlarının fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

«Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası»nın 4.1-ci bəndinə əsasən, operatorun səlahiyyətlərini həyata keçirən dövlət orqanı kimi Vergilər Nazirliyi müəyyən edilmiş və Qaydanın 4.2.4.-ci bəndinə əsasən operatora alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi məqsədi ilə ƏDV köşklərinin fəaliyyətinin təşkili nazirliyə həvalə edilmişdir.




Üzərində ticarət festivallarının stikeri olan 7 ədəd xüsusi qutu hazırlanması, eləcə də ƏDV köşkündə fəaliyyət göstərəcək vergi orqanı əməkdaşlarına ASAN imza (mobil elektron İmza) SİM kartlarının alınması və həmin şəxslərə Vergilər Nazirliyi adından müvafiq e-VHF-ni təsdiq etmək üçün səlahiyyətin verilməsi istiqamətində işlər görülür. Bunlarla yanaşı, ƏDV köşklərində fəaliyyət göstərəcək vergi orqanı əməkdaşlarının, müvəkkil bankların və satıcıların ticarət festivalları dövründə alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi prosesi ilə bağlı təlimlərin keçilməsi nəzərdə tutulmuşdur.

ƏDV-nin qaytarılması bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda tətbiq edilir, nağd ödəniş və ya bank kartına (və ya hesabına) köçürmə yolu ilə həyata keçirilir

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatı Vergilər Nazirliyinin Mədəniyyət və Turizm Nazirliyi ilə birgə müəyyən etdiyi qaydaya uyğun olaraq aparılır. Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədovun sözlərinə görə, alış-veriş zamanı tətbiq olunan ƏDV-nin Azərbaycan vətəndaşlarına qaytarılması yalnız «Bakı ticarət festivalı» və müvafiq vergi orqanlarında qeydiyyatdan keçmiş ticarət obyektlərində tətbiq edilir. Bu obyektlərin üzərində xüsusi «Baku Shopping Festival-Tax Free» stikeri yerləşdiriləcək. Azərbaycan vətəndaşlarına yalnız həmin stiker olan obyektlərdə alınmış mallara ödənilmiş ƏDV qaytarılır.

Festival zamanı yerli əhaliyə ƏDV-nin qaytarılması sisteminə qoşulmaq üçün sahibkarlar müraciət ərizəsini yazılı və ya festivalın rəsmi internet saytında olan elektron ərizə formasını doldurub qeydiyyatdan keçməlidirlər. Qeydiyyat ödənişlidir. Daha ətraflı məlumat üçün bu ünvana müraciət etmək olar: http://bakushopfest.com/merchant-terms

**Fəxriyyə İKRAMQIZI**

# Elektron ticarət zamanı kart təhlükəsizliyi

Vergi Məcəlləsinə və «Elektron ticarət haqqında» Qanuna edilmiş əlavə və dəyişikliklərin mühüm müddəalarından biri 2017-ci il yanvarın 1-dən elektron ticarət qaydasında malların alışı istisna olmaqla, bütün xidmətlərin vergiyə cəlb edilməsidir. Qanuna əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ƏDV hesablanması və ödənilməsidir. Qeyri-rezidentlərə məxsus elektron «pul kisələri»ndə yaradılmış hesaba köçürülən vəsaitdən ödəməni həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 10 faiz dərəcə ilə ödəmə mənbəyində vergi hesablanır və alıcının hesabından tutulur.

E-ticarətin geniş tətbiqi onlayn ödəmələrdə təhlükəsizliyin təmin edilməsini də aktuallaşdırır. Onlayn ödəmələrdə «3d security cod» tələb olunur və bu sistemin tam etibarlılığı e-ticarət əməliyyatlarında mühüm faktorlardan biridir. Azərbaycan banklarının bəzilərində bu təhlükəsizlik sisteminin, ümumiyyətlə, e-təhlükəsizliyin təmin olunması vətəndaşları qayğılandıran əsas məsələlərdəndir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov hesab edir ki, banklarda e-ticarət zamanı vergilərin hesablanması və tutulması üçün proqram istifadəyə verilib və artıq bu proses müvafiq qaydalar əsasında tənzimlənir. Bank kartlarının təhlükəsizliyinin təmin edilməsi Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən tənzimlənir.

Bank sahəsi üzrə mütəxəssis Elçin Qədimovun rəyinə görə, prosessinq mərkəzləri təhlükəsizlik və istifadəçilərin rahatlığını prioritet məsələ kimi diqqətdə saxlamalıdır: «Çünki bank kartları sahəsində dələduzluq və fırıldaqçılıq halları dünyada ciddi problemlərdən biri kimi diqqətdə saxlanılır. Hazırda ölkəmizdə prosessinq mərkəzləri tərəfindən «PCI DSS» təhlükəsizlik standartlarına cavab verən sistem yaradılıb ki, bu, prosessinq mərkəzi tərəfindən bank kartlarındakı bütün məlumatların yadda saxlanmasına imkan verir. Azərbaycan banklarının əksəriyyəti artıq «PCI DSS» sertifikatını əldə edib, sertifikat aparılan əməliyyatlar barədə məxfi məlumat təhlükəsizliyini təmin edən informasiya strukturunun müdafiə standartlarına uyğunluğunu təsdiq edir».

Mərkəzi Bankın məlumatına görə, hazırda «PCI DSS» texnologiyasının ən son standartlarından olan 3.2 versiyasının tətbiqi üçün banklarla geniş iş aparılır. Bu sistem kartlarla aparılan bütün əməliyyatların təhlükəsizliyinin ən yüksək səviyyədə təmin olunmasına imkan verir. Bununla yanaşı, hazırda bankların çoxu plastik kart müştərilərini «3D Secure» təhlükəsizlik sistemi ilə təmin edib. Eyni zamanda, «Azərpoçt» MMC-nin «MasterCard» kart sahibləri internet vasitəsilə həyata keçirdikləri əməliyyatların təhlükəsizliyini təmin etmək məqsədilə bu texnologiyanı tətbiq edir. Sistem dələduzluq hallarından mühafizə olunmaq və internet vasitəsilə həyata keçirilən onlayn ödənişlərin təhlükəsizləşdirilməsi imkanı verən müasir texnologiyadır. «3D Secure» xidməti bankın bütün növ «Visa» və «MasterCard» plastik kartlarına şamil olunur və öz sahiblərinə nəinki Azərbaycanda, eləcə də xarici ölkələrdə onlayn alış-verişlərini təhlükəsiz qaydada aparmaq imkanı yaradır. Bu qabaqcıl texnologiyanın iş prinsipi müştərinin yalnız özünə aid olan və kartın üzərində qeyd edilməyən xüsusi «3D» parolu vasitəsilə həyata keçirilir. «3D Secure» parolu olan kartla sahibindən başqa heç bir kəs internetdə ödəmə apara bilməz, çünki xidmətə qoşulmuş kart ilə internetdə ödəniş edərkən müştərinin mobil telefonuna SMS vasitəsilə birdəfəlik şifrə göndərilir və əməliyyat yalnız həmin şifrə daxil edildikdən sonra həyata keçir. Plastik kartları olan vətəndaşlar «3D Secure» xidmətinə qoşulmaqla hesablarındakı vəsaitlərin təhlükəsizliyinə arxayın ola bilərlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi də kənar hücumların və vətəndaşların hesablarına müxtəlif vasitələrlə daxil olunmasının qarşısını almaq sahəsində müvafiq qurumlarla birgə iş aparıldığını bildirir.

**ELBRUS**



Banklarda e›ticar t zaman vergil rin hesablanmas v tutulmas n proqram istifad y verilib v art q bu proses m vafiq qaydalar sas nda t nziml nir



# 2017-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

**2017-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Əlavə dəyər vergisi bəyannaməsini,

• Aksiz bəyannaməsini,

• Yol vergisi bəyannaməsini,

• Mədən vergisi bəyannaməsini,

• Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini,

• Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

• Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər *(vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir)*.

**2017-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Sadələşdirilmiş verginin bəyannaməsini,

• Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• Cari ilin 1-ci rübü üzrə **muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər) cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli, mart ayı üzrə hesablanmış vergini isə həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Xüsusi notariusların gəlir vergisi bəyannaməsini** cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Dövlət rüsumu haqqında hesabatı** cari ilin aprel ayının 20-dək vergi orqanına təqdim etməlidirlər (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergisi ödəyiciləri** cari ilin 1-ci rübü üzrə hesablanmış cari ödəmələrini aprel ayının 17-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi sizə tövsiyə edirik.**

# Transfer qiymətləri ilə bağlı qaydalar təkmilləşdirilir

## Vergilər Nazirliyinin kollegiyasının qərarı ilə «Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi» qaydası təsdiq edilib

Sənədə əsasən, transfer qiymətləri yalnız Vergi Məcəlləsinin 16.1.4-cü maddəsi ilə müəyyən edilən həddən yuxarı olan əməliyyatlara tətbiq edilir və mənfəət (gəlir) vergisinin məqsədləri üçün istifadə olunur. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbov mövzu ilə bağlı açıqlama verərək qeyd etmişdir ki, vergi ödəyicisi tərəfindən nəzarət olunan əməliyyatlar çərçivəsində təqdim edilən və ya alınan malların qiymətləri müqayisə edilən nəzarət olunmayan əməliyyatlar üzrə qiymətlərə uyğun olmadığı halda, vergi ödəyicisi və vergi orqanı həmin əməliyyatdan vergini transfer qiymətləri əsas götürülməklə yenidən hesablamalıdır: «Transfer qiymətinin müəyyən edilməsi üçün müqayisə olunan əməliyyatların seçilməsi müqayisəli təhlil əsasında aparılır. Müqayisə edilən nəzarət olunmayan əməliyyat qismində həm nəzarət edilən əməliyyatın tərəfi olan şəxsin özünün müstəqil şəxslərlə apardığı oxşar əməliyyatlar, həm də müstəqil şəxslər arasında aparılan oxşar əməliyyatlar istifadə edilə bilər. Müqayisə edilən oxşar əməliyyatların seçilməsi zamanı onların nəzarət olunan əməliyyatla eyni dövrdə həyata keçirilməsi və yeni təsdiqlənmiş qaydaların 4.3-cü bəndindəki göstəricilərin eyni və ya oxşar olması əsas götürülməlidir. Nəzarət olunan əməliyyat qrupdaxili maliyyələşdirmə ilə bağlı olduqda, onunla müqayisə edilə bilən əməliyyatın seçilməsi üçün müqayisəli təhlil həyata keçirilən zaman qaydaların 4.3-cü bəndində nəzərdə tutulanlardan əlavə olaraq, borc və ya kredit alan tərəfin və ya öhdəlikləri zəmanətlə təmin edilən tərəfin kredit tarixçəsi və ödəmə qabiliyyəti, təminatın təbiəti və bazar dəyəri, kredit və ya borcun verilməsi müddəti, kredit və ya borcun valyutası, faiz dərəcəsinin müəyyən edilməsi proseduru və faiz dərəcəsinin müəyyənləşdirilməsinə təsir edən digər amillər müqayisə olunur».

### *Transfer qiymətlərinin müəyyən edilməsi üsulları*

Ş.Ərəbovun sözlərinə görə, transfer qiymətlərinin müəyyən edilməsi üçün qiymətlərin müqayisəsi üsulu, sonrakı (təkrar) satış qiyməti üsulu, dəyərin toplanması üsulu, rentabellilik üsulu və mənfəətin bölgüsü üsulundan istifadə olunur: «Transfer qiymətinin müəyyən edilməsi üçün mümkün olan bütün hallarda qiymətlərin müqayisəsi üsulu tətbiq edilməlidir. Yalnız transfer qiymətinin qiymətlərin birbaşa müqayisəsi yolu ilə müəyyən edilməsi mümkün olmadıqda və bu üsulun tətbiqi üçün müqayisə oluna bilən əməliyyatlar, yaxud həmin əməliyyatlar üzrə qiymətlər haqqında məlumatlar olmadıqda digər üsullardan istifadə edilə bilər. Digər üsullardan hansının tətbiq olunması barədə qərar qəbul edilərkən nəzarət olunan əməliyyatın xarakteri, əməliyyatın tərəfləri olan şəxslərin xüsusiyyətləri və digər göstəricilər əsas götürülməklə, tapılmış müqayisə edilən nəzarət olunmayan əməliyyat barədə məlumatlar hansı üsulun tətbiqinə daha çox imkan verirsə, həmin üsuldan istifadə edilir».

Qeyd edilmişdir ki, transfer qiymətinin müəyyən olunması üçün müqayisəli təhlil nəticəsində müqayisə edilə bilən yalnız bir əməliyyat tapılarsa, transfer qiyməti həmin əməliyyatın müvafiq göstəriciləri əsasında hesablanmalıdır. Müqayisə edilə bilən bir neçə əməliyyat olduğu halda, transfer qiyməti bütün müqayisə edilən əməliyyatların seçilmiş müvafiq göstəricilərinin ədədi ortası əsasında hesablanır. Nəzarət olunan əməliyyatlar üzrə qiymət nəzarət olunmayan əməliyyatlar üzrə transfer qiymətinə uyğundursa, yaxud müəyyən edilmiş interval daxilindədirsə, vergilər faktiki qiymət əsas götürülməklə hesablanmalıdır: «Vergi ödəyicisinin vergi ili ərzində apardığı nəzarət olunan əməliyyatların ümumi dəyəri Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinə əsasən müəyyən edilmiş həddən artıq olduqda, həmin vergi ödəyicisi tərəfindən aparılmış əməliyyatlara dair məlumat Məcəllədə nəzərdə tutulmuş müddətlərdə «Nəzarət olunan əməliyyatlar haqqında Arayış» və onun əlavəsi müvafiq qaydada doldurularaq vergi orqanına təqdim olunmalıdır».

Transfer qiymətlər müəyyən edilərkən yerli və beynəlxalq birja kotirovkaları, gömrük orqanının apardığı xarici ticarət statistikası, mənbəyi bəlli olan məlumat mənbələrində yerləşdirilmiş hesabat məlumatları, vergi orqanının qoşulduğu beynəlxalq ixtisaslaşmış agentliklərin məlumat bazaları, mallara, işlərə və xidmətlərə, habelə onların yerli və beynəlxalq bazarlarda təsbit edilmiş qiymətlərinə dair mənbəyi bəlli olan məlumatların yerləşdirildiyi məlumat mənbələrindən istifadə olunur.

### *Transfer qiymətləri üsullarının əvvəlcədən razılaşdırılması*

Vergi ödəyicisi hər hansı nəzarət olunan əməliyyat aparılmazdan əvvəl vergi orqanına rəsmi məktubla müraciət edərək, müvafiq müqavilə ilə birlikdə əməliyyatın bütün təfsilatları barədə məlumatları təqdim edə və transfer qiymətlərinin müəyyənləşdirilməsi üsulunun əvvəlcədən seçilməsi üçün müraciət edə bilər. Müraciət əməliyyatın həyata keçirilməsinə ən azı üç ay qalmış təqdim edilməlidir: «Vergi ödəyicisinin müraciətinə vergi orqanı tərəfindən baxılaraq, müvafiq əməliyyat üçün istifadə edilməsi tövsiyə olunan transfer qiymətinin müəyyənləşdirilməsinin tövsiyə edilən üsulu barədə məlumat müraciətə yazılı cavab formasında vergi ödəyicisinə təqdim edildiyi halda, həmin əməliyyat üçün etibarlı hesab olunur. Vergi orqanı ilə rəsmi yazışma nəticəsində tövsiyə edilmiş üsulla vergi ödəyicisi tərəfindən müəyyənləşdirilmiş transfer qiyməti yalnız vergitutma məqsədləri üçün gəlirin və xərclərin müəyyənləşdirilməsində istifadə olunur və müvafiq bəyannamə təqdim edilərkən nəzarət olunan əməliyyatdan vergi həmin qiymətlə hesablanır. Əməliyyatın faktiki qiyməti əməliyyat tərəfləri arasında müstəqil razılaşdırıla bilər».

> Vergi orqanı vergi ödəyicisinin müstəqil şəkildə müəyyən etdiyi transfer qiyməti ilə razılaşdığı təqdirdə, nəzarət olunan əməliyyatdan vergi həmin qiymət əsas götürülməklə hesablanır

### *Transfer qiymətinin vergi ödəyicisi tərəfindən müstəqil şəkildə müəyyənləşdirilməsi*

Qaydalara uyğun olaraq, vergi ödəyicisi öz istəyi ilə faktiki müqavilə qiyməti əsasında həyata keçirilmiş əməliyyatlardan vergini müstəqil şəkildə müəyyənləşdirdiyi transfer qiyməti əsasında hesablaya, bəyan edə və ödəyə bilər. Vergi ödəyicisi transfer qiymətlərini müstəqil şəkildə müəyyən etdiyi halda, həmin qiymətin sözügedən qaydaların tələblərinə uyğunluğunun yoxlanılması üçün tələb olunan bütün sənədləri, o cümlədən nəzarət olunan əməliyyatın təfərrüatları və şərtləri, hesablamanın şərtləri, müqayisə üçün seçilmiş əməliyyatlar, həmin əməliyyatların və tətbiq edilmiş üsulun seçim səbəbi və əsaslandırılması haqqında məlumatları və təsdiqedici sənədləri də vergi orqanına təqdim edilməlidir: «Vergi orqanı vergi ödəyicisinin müstəqil şəkildə müəyyən etdiyi transfer qiyməti ilə razılaşdığı təqdirdə, nəzarət olunan əməliyyatdan vergi həmin qiymət əsas götürülməklə hesablanır. Vergi orqanı vergi ödəyicisinin təqdim etdiyi əsaslandırmaların düzgün olmadığı və transfer qiymətinin başqa üsulla və ya başqa müqayisə oluna bilən əməliyyatlardan istifadə edilməklə hesablanmalı olduğu qənaətinə gəldiyi halda, vergini öz hesablamaları əsasında müəyyən etdiyi transfer qiyməti əsas götürülməklə hesablayır».

### *İkiqat vergitutmanın aradan qaldırılması*

Ş.Ərəbov bildirmişdir ki, nəzarət olunan əməliyyatda transfer qiymətinin müəyyənləşdirilməsi və tətbiqi nəticəsində vergi ödəyicisinin vergitutma bazası dəyişikliklərə məruz qalarsa və bunun nəticəsində həmin əməliyyatdan mənfəətə münasibətdə həm Azərbaycan Respublikasında, həm də əməliyyatın digər tərəfi olan şəxsin dövlətində ikiqat vergitutma halının yarana biləcəyi halda, vergi ödəyicisinin və ya əməliyyatın tərəfi olan digər şəxsin müraciəti əsasında vergi orqanı digər dövlətdə nəzərə alınması məqsədilə Azərbaycan Respublikasında əməliyyat nəticəsində ödənilmiş vergilər barədə məlumatı izahlı şəkildə müraciət edən şəxsə təqdim edə bilər: «Digər dövlətin səlahiyyətli orqanı Azərbaycan Respublikasının vergi orqanının gəldiyi nəticə və hesabladığı vergilərlə razılaşmadığı təqdirdə, qarşılıqlı razılaşma proseduru həmin dövlətlə Azərbaycan Respublikası arasında qüvvədə olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilənin müddəaları əsasında aparılır. Digər dövlətlə Azərbaycan Respublikası arasında qüvvədə olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə mövcud olmadığı halda, Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilməklə müəyyənləşdirilmiş transfer qiyməti və hesablanmış vergi ilə bağlı həmin digər dövlətin vergi orqanının mövqeyi nəzərə alınmır».

**Aytən NƏBİYEVA**

# Vergi siyasəti və ixracın təşviqi

Prezident İlham Əliyev pambıqçılığın inkişafına dair Saatlı rayonunda keçirilən respublika müşavirəsində bildirib ki, Azərbaycan yeni iqtisadi prioritetlərə uyğun iqtisadi siyasət yürüdür. Məqsəd milli sahibkarlığın daha da inkişaf etdirilməsi, qeyri-neft məhsullarının istehsalı və ixracının artırılmasıdır. Dövlət başçısı bu siyasətə uyğun olaraq xarici ölkələrdə təşkil olunan ixrac missiyalarının, yaradılan ticarət evlərinin mühüm əhəmiyyət daşıdığını qeyd edib.

2017-ci ildə qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, ixrac məhsullarının çeşidinin və həcminin artırılması, eləcə də ixrac coğrafiyasının genişləndirilməsi ilə bağlı tədbirlərin sürətləndirildiyini bildirən iqtisadiyyat naziri Şahin Mustafayevin sözlərinə görə, sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracatçılar üçün daha münasib şəraitin yaradılması nəzərdə tutulur. Artıq malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi sadələşdirilərək, müddəti 3 gündən 1 günə endirilib. Bu islahatlar milli ixracatçıların xarici bazarlara daha asan və rahat şəkildə məhsul çıxarmasına imkanlar yaradır.

İxrac olunan malların sənədləşdirilməsi zamanı zəruri sənədlərin sayının azaldılması da öz həllini tapacaq. İxracın təşviqi ilə bağlı siyasətə uyğun olaraq, ötən ilin sonlarından başlayaraq Çin, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Əfqanıstan, Pakistan və Qətərə ixrac missiyası təşkil olunub, sahibkarların missiyalarla bağlı bütün xərcləri dövlət büdcəsi hesabına ödənilib. Bu ay Qazaxıstanın Astana və Almatı şəhərlərinə ixrac missiyası təşkil olunacaq. Belə tədbirlərin səmərəliliyinin artırılması və ixracın təşviqi məqsədilə AZPROMO-nun nəzdində «İxracatçılar Klubu» yaradılıb, «export.az» rəsmi ixrac portalı istifadəyə verilib.

Ötən ildən başlayaraq dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi həyata keçirilir. Bu məqsədlə həmin sahələrin fəaliyyətini tənzimləyən Koordinasiya Şurasının idarəetmə sisteminin təkmilləşdirilməsi də nəzərdə tutulur. Bütövlükdə bu sahədə də yaradılan əlverişli şərait ixracla məşğul olan yerli və xarici şirkətlərin tranzit daşınmalarında fəallığının artmasına, ixracla məşğul olan sahibkarlar üçün rəqabət mühitinin yaxşılaşmasına xidmət edəcək.

Artıq bir sıra xarici ölkələrdə ticarət evlərinin təşkili, səfirlik və konsulluqlarda ticarət nümayəndələrinin təyin edilməsi işlərinə başlanılıb. İlk olaraq Rusiya Federasiyasında və Belarusda Azərbaycan Ticarət Evi yaradılıb. Hazırda Ukraynada və digər ölkələrdə də ticarət evlərinin yaradılması planlaşdırılır. Xarici ölkələrdə yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsi, işgüzar əlaqələrin çevikliyinin artırılması məqsədilə yaxın günlərdə səfirliklərdə ticarət nümayəndəliklərinin fəaliyyətə başlaması təmin olunacaq. «Made in Azerbaijan» brendinin xarici ölkələrdə genişmiqyaslı təşviqi ilə əlaqədar əlavə tədbirlər görüləcək.

2017-ci və növbəti illərdə Azərbaycan məhsullarının beynəlxalq ticarətdə sərbəst dövriyyəsinin təmin edilməsi və idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi üçün bir sıra əlavə tədbirlər də həyata keçiriləcək. Xarici dövlətlərlə azad ticarət sazişlərinin imzalanması, nəqliyyat-logistika infrastrukturunun gücləndirilməsi, ticarət-logistikası üzrə təkmilləşdirmələrin aparılması yaxın vaxtlarda öz həllini tapacaq. Hazırlanan yeni azad ticarət sazişləri bazarların təhlilinə əsaslanacaq. Ənənəvi MDB bazarları ilə yanaşı, qeyri-neft ixracını artırmaq məqsədilə Avropa İttifaqı, Körfəz ölkələri, Çin kimi bazarlara daha əlverişli ticarət rejimi əsasında daxil olmaq istiqamətində fəaliyyət davam etdiriləcək. Dövlət dəstəyi ilə ixrac bazarlarında logistika mərkəzlərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması və risk təhlili aparılacaq və bu layihələrin ixraca verə biləcəyi real dəyər proqnozlaşdırılacaq. Ölkədə elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun və hüquqi bazasının inkişafı təmin olunmaqla yerli məhsul və xidmətlərin xarici bazarlara çıxışının e-ticarət vasitəsilə həyata keçirilməsi təşviq ediləcək. Bundan başqa, hüquqi bazanın formalaşdırılması, milli standartların beynəlxalq və Avropa standartlarına uyğunlaşdırılması ilə bağlı müvafiq tədbirlər planının qəbul edilməsi də nəzərdə tutulur.

İxracın stimullaşdırılmasında həyata keçirilən vergi siyasəti də mühüm rol oynamaqdadır. Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı ilin iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad olunub. Məqsəd ölkəmizin transnəqliyyat marşrutlarının şaxələndirilməsi və respublikamızın beynəlxalq nəqliyyat sistemləri qovşağında mövqeyinin möhkəmlənməsinə nail olmaqdır. Bu güzəştlər həm dəmir yolu, həm də yük avtomobilləri və digər avtonəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına tətbiq olunur. Bu addımın atılması Azərbaycandan xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşıma xərclərinin aşağı salınmasına və ixrac imkanlarının yaxşılaşmasına dəstək məqsədi daşıyır. Bundan başqa, milli ixracın stimullaşdırılmasına və ixracın coğrafiyasının genişləndirilməsinə dəstək məqsədilə qanunvericiliyə edilmiş digər dəyişikliklər - 2016-cı ilin avqust ayından tətbiq olunan «Yaşıl dəhliz» sistemi də mühüm əhəmiyyət kəsb edir. Bu sistem gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi, məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında qurulması, eləcə də Azərbaycan məhsullarının yeni bazarlara çıxarılması üçün əlavə imkanlar yaradır.

> Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı ilin iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad olunub

**E.CƏFƏRLİ**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Bu ilin payızından Rusiyada «tax free» sistemi işə düşəcək

Bu ilin oktyabr ayından Rusiyada əlavə dəyər vergisinin qaytarılması - «tax free» sisteminin qüvvəyə minməsi nəzərdə tutulur. Maliyyə Nazirliyinin Vergi və gömrük siyasəti departamentinin rəhbəri Aleksey Sazanov bildirmişdir ki, artıq müvafiq sənəd İqtisadi İnkişaf, Sənaye və Ticarət nazirlikləri və Federal Vergi Xidməti ilə razılaşdırılmışdır. Sonuncu mərhələdən - Ədliyyə Nazirliyinin təsdiqindən sonra qanun layihəsi baxılmaq üçün hökumətə təqdim ediləcək.

Gözlənildiyinə görə, bu məqsəd üçün Moskva, Sankt-Peterburq və Soçi şəhərləri seçiləcək. Bundan əlavə, hökumət pilot layihədə iştirak edəcək ticarət təşkilatları üçün meyarların siyahısını da təyin edəcək. Meyarlar son bir neçə il ərzində qeydə alınmış dövriyyəyə və ödənilmiş vergilərin məbləğinə əsaslanacaq.

«Tax free» ilə bağlı qanun layihəsinin əsasında əcnəbi qonaqların Rusiyada malları alarkən ödədikləri ƏDV-nin onlar ölkədən çıxarkən qaytarılması dayanır. Qanun bütün aksizsiz malları (hökumət tərəfindən təsdiqlənmiş siyahıdakı mallar istisna olmaqla) və alkoqollu məhsulları əhatə edəcək. ƏDV-nin qaytarılması hüququnu qazanmaq üçün minimum alış məbləği 10 min rubldan (300 manat) az olmamalıdır.

Xatırladaq ki, Azərbaycanda «tax free» sistemi 2016-cı ilin avqust ayından tətbiq olunur. Minimum alış məbləği isə Rusiyada nəzərdə tutulduğu qədər - 300 manatdır.

## Qazaxıstanda ƏDV güzəştləri ləğv ediləcək



«Qazaxıstan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv qəbul edilməsi ilə əlaqədar əlavə dəyər vergisinə tətbiq edilmiş və təşkilatın prinsiplərinin tələblərinə zidd olan ayrı-ayrı güzəştlər 2018-ci ildən ləğv ediləcək», - ölkənin milli iqtisadiyyat naziri Timur Süleymanov bildirmişdir.

Burada söhbət həm də kənd təsərrüfatı xammallarının emalı və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər üçün fəaliyyətin müxtəlif növləri üzrə əlavə dəyər vergisinə tətbiq edilən 70 faizlik güzəştin aradan qaldırılmasından gedir. Bundan əlavə, kənd təsərrüfatı məhsulları, akvabitki məhsulları istehsalçıları və kənd təsərrüfatı kooperativləri üçün tətbiq edilən xüsusi vergi rejimi də ləğv olunacaq. Həmin rejimə əsasən, hazırda büdcəyə ödənilən əlavə dəyər vergisinin məbləği 70 faiz azdır.

Bununla bərabər, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələrin təcrübəsinə əsaslanan iqtisadi səmərəlilik prinsipinə görə, ƏDV-dən azadetmə formasında tətbiq olunan bir sıra vergi güzəştlərinin qalıb-qalmaması məsələsinə də baxmaq nəzərdə tutulur.

## Avropa bankları vergi limanlarından 25 milyard avro «qabağa düşüblər»

«Oxfam» təşkilatının məruzəsinə əsasən, 2016-cı ildə Avropanın ən iri bankları öz gəlirini ofşor zonalarda qeydiyyata aldırmaqla 25 milyard avro vəsaiti vergidən yayındırmağa müvəffəq olmuşlar. Ən populyar vergi limanları İrlandiya və Lüksemburq sayılır: bank gəlirlərinin 29%-i bu iki ölkədə qeydiyyatdan keçirilmişdir. Özünün 134 milyon avro məbləğində gəlirlərini Kayman adalarında qeydiyyata aldırmış «BNP Paribas» bankı da vergi qaçaqlarının siyahısında yer tutur.

Almaniyanın «Deutsche Bank»ı daha da irəli getmişdir: bank öz ölkəsində cüzi itkilərini qeydə aldırsa da, vergi limanlarındakı gəlirləri təxminən 2 milyard avro təşkil etmişdir. «Oxfam»ın hesabatında göstərilir ki, vergi limanlarında fəaliyyət göstərən bank əməkdaşları da qeyri-adi dərəcədə effektiv fəaliyyət göstərirlər: Almaniyada illik gəlirləri 45 min avro olan bank qulluqçularının ofşorlardakı illik mənfəətləri 170 min avrodur.

«Oxfam» hesab edir ki, Avropa İttifaqına daxil olan ölkələrin hökumətləri iri maliyyə institutlarının vergi ödənişlərinə daha ciddi nəzarət etməlidirlər. Çünki bu cür böyük vergi itkiləri üzv ölkələrin iqtisadiyyatını zədələyir, bundan isə büdcədən maaş alan vətəndaşlar - həkimlər, müəllimlər və sosial sahədə çalışanlar daha çox ziyan görürlər.

## Xəbər lenti

**BP şirkəti** 2015-ci ili 5,2 milyard kəsirlə başa vurandan sonra itkilərin yerini doldurmaq üçün kütləvi kadr ixtisarlarına başlamışdır. Bu, şirkətin fəaliyyət göstərdiyi ölkələrdə vergi daxilolmalarına da öz təsirini göstərəcək.

**Belçika** hökumətinə Beynəlxalq Valyuta Fondu tərəfindən korporativ və gəlir vergilərinin dərəcələrini, eləcə də dolayı vergilərə tətbiq olunan güzəştləri azaltmaq təklif edilmişdir.

**Belarus**da fiziki şəxslər üçün nağdsız hesablaşmalara görə vergi güzəştləri 2021-ci il yanvarın 1-dək uzadılmışdır.

**Hindistan**ın maliyyə naziri Arun Ceytli bildirmişdir ki, iyul ayından ölkədə mallar və xidmətlər üçün vergi rejimi qüvvəyə minəcək.

**Birləşmiş Ərəb Əmirlikləri**ndə yerli hakimiyyət dairələri tərəfindən bildirilmişdir ki, yaşayış əmlakı ƏDV-dən azad ediləcək, kommersiya təyinatlı daşınmaz əmlakdan isə 5%-lik rüsum tutulacaq.

**Səudiyyə Ərəbistanı** «Aramko» dövlət neft şirkətinin səhmlərinin qiymətlərinin yüksəldilməsi ərəfəsində neft və karbohidrogen hasilatçıları üçün vergilərin aşağı salındığını elan etmişdir.

**Rusiya**da aprelin 1-dən vətəndaşlar vahid vergi bildirişi almağa başlamışlar. Bildiriş fiziki şəxslərin gəlirləri, torpaq, nəqliyyat və əmlak vergilərini əhatə edir.

**Kanada**nın Kvebek əyalətinin hökuməti gəlir vergisinin tutulması üçün qoyulmuş həddin qaldırılmasını və 2016-cı ildə səhiyyə məqsədilə tutulmuş sığorta haqlarının qaytarılmasını planlaşdırır.

**Şeyşel adaları**nın gəlirlər komissiyası turizm biznesi üzrə vergi (tourism marketing tax) ödəyiciləri bazasının genişləndirildiyini elan etmişdir. Bundan sonra illik dövriyyəsi 74.271 ABŞ dollarından çox olan kazino operatorları və tikinti podratçıları da bu vergini ödəyəcəklər. Hazırda həmin verginin məbləği aylıq dövriyyənin 0,5%-ni təşkil edir.

**Niderland, Almaniya və Fransa**da əlaqələndirilmiş qaydada silsilə axtarışlar aparılmışdır. Köln prokurorluğunun nümayəndəsi adı gizli saxlanılan banklardan birinin müştəriləri ilə bağlı ilkin təhqiqatın başlandığını elan etmişdir.

**Malayziya**nın Baş naziri palma yağından vergi tutulmasından imtina etmiş Fransa rəhbərliyinə öz ölkəsi adından minnətdarlıq edərək bildirmişdir ki, belə bir addımın atılması palma yağı istehsalı sənayesində çalışan 600 mindən artıq malayziyalının dolanışıq şərtlərinə mənfi təsir göstərə bilərdi.

## Vergi amnistiyası büdcə daxilolmalarına müsbət təsir göstərir

İndoneziyada keçən ilin iyun ayından tətbiq edilməyə başlayan vergi amnistiyası bu il martın sonuna qədər davam etmişdir. Bu sxem çərçivəsində ölkədə 300 milyard dollardan artıq aktivlər aşkar edilmişdir.

Hökumət bu tədbirə zəruri addım kimi əl atmışdı: 225 milyona yaxın əhalisi olan ölkənin sakinlərinin böyük əksəriyyəti ya dövlətə heç bir vergi ödəmirdi, ya da öz vergi öhdəliklərinin cüzi hissəsini yerinə yetirirdi. Bu isə ona gətirib çıxarmışdı ki, ölkədə toplanılan vergi məbləği ümumi daxili məhsulun (ÜDM) cəmi 10,8%-ni təşkil edirdi. Bu rəqəm də dünyanın ən aşağı göstəricilərindən sayılır. Hökumət indi bu göstəricini 15%-dək qaldırmaq niyyətindədir. Qeyd edək ki, OECD üzrə vergilərin ÜDM-dəki xüsusi çəkisi 34,4% təşkil edir və İndoneziya həmin səviyyəyə çatmaq üçün bundan sonra da ciddi tədbirlər görməlidir.

İndoneziyadakı vergi amnistiyası sxemi həm xarici, həm də daxili aktivlərin aşkarlanmasını əhatə edir. Ümumilikdə 342 milyard dollar məbləğində aktivlər aşkar edilmişdir ki, bu da ölkə üzrə ÜDM-in 30%-dən artıqdır. Aşkar edilən aktivlərin 254,4 milyard dolları ölkə daxilində, qalan 76,8 milyard dolları ölkədən xaricdədir. Əlavə 10,9 milyard dollar vəsait isə bu sxemə əsasən müəyyənləşdirilmiş stimullaşdırma tədbirləri nəticəsində ölkəyə qaytarılmalıdır.

## «Uber» Rusiyada ƏDV ödəyicisi kimi qeydiyyata alınıb

Müxtəlif ölkələrdə «Uber» taksi xidmətinin vergiyə cəlb olunması ilə bağlı təşəbbüslər irəli sürülməkdədir. Rusiyanın Federal Vergi Xidmətindən bildirildiyinə görə, müştərilər arasında populyarlığı getdikcə artan bu xidmət artıq əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyata alınmışdır.

«Uber»in mətbuat xidmətinin açıqlamasında isə qeyd olunur: «Uber B.V.» tərəfindən Rusiya Federasiyasının ərazisində tərəfdaşlara göstərdiyimiz elektron xidmətlərə görə aprel ayının 1-dən ƏDV-nin müstəqil şəkildə ödənilməsi ilə bağlı qərar qəbul etmişik. Bu dəyişiklik «Uber B.V.» şirkəti tərəfdaşlarına qoyulan haqların artımına və istifadəçilər üçün göstərilən taksi xidmətinin bahalaşmasına səbəb olmayacaqdır».

Xatırladaq ki, Rusiyada qüvvədə olan qanun xarici informasiya texnologiyaları şirkətlərinin üzərinə RF-də istifadəçilərə göstərilən elektron xidmətlərin satışından ƏDV ödəmək öhdəliyi qoyur. Bu qanunun şamil edildiyi xarici təşkilatlar vergi orqanlarında xüsusi vergi uçotuna durmalıdırlar. Hər hansı şirkət qeydiyyata düşməkdən imtina etdiyi halda, qeyri-qanuni sahibkarlıq fəaliyyətinə görə hüquqi məsuliyyət daşıyır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Quba rayonunda kənd; 2.Uçan cismin dəyib yana sıçraması (səkdirmə); 3.Möhkəm parlaq pambıq parça; 4.Rusiyada çay; 5.Gözəl iri gülləri olan su bitkisi; 6.Ödənişlə bir şeydən istifadə hüququnun başqasına verilməsi; 9.Kişi adı; 13.Qabığı tüklü, içi yaşıl, turşməzə tropik meyvə; 15.Qədim yunan və Roma mifologiyalarına görə şəfa tanrısı; 16.Gözü işıqdan qorumaq üçün lampaya keçirilən örtük, qalpaq; 17.Təknəvari quruluşa malik gəmi, su nəqliyyatı vasitəsi. Həmçinin türk pop müğənnisinin soyadı; 18.Acı badam iyi verən rəngsiz uçucu maye; 20.Rusiya Rəssamlıq Akademiyasının prezidenti. UNESCO-nun xoşməramlı səfirinin adı; 21.Modern üslubda çalışan yunan arxitektorunun soyadı, açıq səmada Likavit teatrının müəllifidir. **Soldan sağa:** 1.Azərbaycan klassik bəstəkarı, dirijor, librettoçu, Azərbaycanın xalq artistinin adı. Bir sıra opera, balet, orkestr və tamaşaların müəllifi; 5.Samux rayonunda kənd; 7.Dərman və otların qarışığı nəticəsində alınan dərman forması; 8.Mərakeşdə şəhər; 10.Bizim eranın I-III yüzilliklərində Orta Asiya, Əfqanıstan, Pakistan və Şimali Hindistan ərazilərində mövcud olmuş qədim dövlət; 11.Yunan mifologiyasında qəhrəman və İtaka çarı; 12.Rusiyanın Perm vilayətində çay; 14.Ölkəmizdə teleradio şirkəti; 19.Bakının Xəzər rayonunda qədim qəsəbə; 21.Sayğacı olan minik və ya yük avtomobili; 22.Əsasən peyzajları ilə məşhur olan Fransa rəssamının soyadı; 23.Spirt əsaslı kosmetik maddə kimi işlədilən ətirli məhlul; 24.İlin üç ayı; 25.Populyar nəqliyyat vasitəsi və idman növü.



Gözəl iri gülləri olan su bitkisi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Oraban; 2.Lümbaqo; 3.Nonet; 4.Ataman; 5.Kuliç; 6.Küveyt; 9.Opus; 13.Quba; 15.Abandon; 16.Dirhəm; 17.Ahıska; 18.Maurer *(Hubert)*; 20.Temir *(xan)*; 21.«İrəli». **Soldan sağa:** 1.Oğlanqala; 5.Kök; 7.Ammonyak; 8.Alov; 10.Azart; 11.Arpaçay; 12.Volqa; 14.Oskar; 19.İntibah; 21.İtaka; 22.Himn; 23.İsgəndər; 24.Mer; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

idman

# Gənc güləşçilərimiz ümidləri doğrultdular



## Yunan-Roma yığmamız 3 qızıl medalla çempionatı birinci sırada tamamlayıb

Macarıstanın Sombateli şəhərində güləş üzrə U-23 Avropa çempionatı başa çatıb. Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, güləşçilərimiz çempionatda ümumilikdə 5 qızıl, 1 gümüş və 5 bürünc medal qazanıblar.

Çempionatın ilk iki günündə sərbəst güləşçilər yarışıblar. Yığmamızın üzvləri 2 qızıl və 3 bürünc medala sahib olublar. Teymur Məmmədov (63 kq) və Hacımurad Ömərov (70 kq) qızıl medala yiyələniblər. Əli Rəhimzadə (61 kq), İsmayıl Abdullayev (74 kq) və Kənan Əliyev (86 kq) isə bürünc medal qazanıblar. Sərbəst güləşçilərimiz komanda hesabında Rusiya, Gürcüstan və Türkiyədən sonra dördüncü sırada qərarlaşıb.

Qadın güləşçilərimiz isə çempionatı 1 gümüş və 1 bürünc medalla başa vurublar. Leyla Qurbanova (53 kq) gümüş, Alyona Kolesnik (58 kq) isə bürünc medala sahib olublar. Qadın güləşçilərimiz komanda hesabında yeddinci olublar.

Qitə birinciliyinin sonuncu iki günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz 3 qızıl və 1 bürünc medal əldə ediblər. Qızıl medalları yığmamıza Murad Məmmədov (59 kq), İslambek Dadov (71 kq) və Orxan Nuriyev (98 kq) qazandırıblar. Bürünc medala isə Eltun Vəzirzadə (80 kq) sahib olub. Bu nəticə ilə yığmamız 42 xalla komanda hesabında üçüncü pillədə qərarlaşıb. Gürcüstan komandası 47 xalla birinci, Rusiya idmançıları isə 45 xalla ikinci yeri tutub.

Medalların əyarına görə isə yunan-Roma güləşçilərimiz 3 qızıl medalla çempionatı birinci sırada tamamlayıb. İki qızıl medal qazanan İsveç ikinci olub. Türkiyə, Macarıstan və Polşa komandası hərəyə 1 qızıl medal qazanıb. Maraqlıdır ki, nə Rusiyanın, nə də Gürcüstanın yunan-Roma güləşi üzrə yığma komandası çempionatda qızıl medal qazana bilməyib.

# Dünya gimnastlarının növbəti görüş yeri – Azərbaycan paytaxtı

Bakı aprelin 28-30-da Beynəlxalq Gimnastika Federasiyasının (FIG) növbəti Dünya kuboku mərhələsinə ev sahibliyi edəcək. Milli Gimnastika Arenasında keçiriləcək bədii gimnastika üzrə beynəlxalq turnirdə 19 ölkədən 92 gimnastın iştirakı gözlənilir. İdmançılardan 34-ü fərdi proqramda, 58-i isə 10 qrup hərəkətləri komandasının tərkibində çıxış edəcək.

Ölkəmizi bu turnirdə Olimpiya Oyunlarının finalçısı, ilk Avropa Oyunlarının gümüş, Avropa çempionatının çoxnövçülük üzrə bürünc medalçısı Marina Durunda, yeniyetmələr proqramında Avropa çempionatının gümüş və bürünc mükafatçısı Jalə Piriyeva, həmçinin Avropa çempionatının qrup hərəkətləri komandasının tərkibində gümüş medalçılar Siyana Vasilyeva, Diana Doman, Aleksandra Platonova, Ayşən Bayramova və Elif Zeynep Celep təmsil edəcəklər. Yarışların ilk iki günündə keçiriləcək təsnifat mərhələlərinin nəticələrindən asılı olaraq, həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları arasında çoxnövçülük üzrə qaliblər və ayrı-ayrı alətlər üzrə finalçılar müəyyənləşəcək. Finallar isə turnirin sonuncu günü keçiriləcək.

Üç gün ərzində tamaşaçılar Azərbaycanın tanınmış gimnastları ilə yanaşı, bir çox məşhur əcnəbi idmançıların da çıxışlarını izləmək şansı əldə edəcəklər. Yarışlarda ikiqat dünya və Avropa çempionu Aleksandra Soldatova (Rusiya), Avropa çempionatının bürünc mükafatçısı Zelikman Nikol (İsrail) iştirak edəcəklər. Həmçinin mübarizəyə qrup hərəkətləri komandaları - Olimpiya Oyunlarının qızıl medalçısı Rusiya, Olimpiya Oyunlarının gümüş medalçısı İspaniya, Olimpiya Oyunlarının bürünc medalçısı - Bolqarıstan və dünya çempionatının bürünc mükafatçısı - Belarus qoşulacaq.



# Millimiz mötəbər turnirə yollanır

Aprelin 8-dən 9-dək Bolqarıstanın Ruse şəhərində güləş üzrə böyüklər arasında Dan Kolov və Nikola Petrovun xatirəsinə həsr olunan beynəlxalq turnir keçiriləcək. 55-ci dəfə təşkil olunacaq turnirdə sərbəst, yunan-Roma və qadın güləşçilərdən ibarət Azərbaycan yığma komandasının üzvləri iştirak edəcəklər.

Qadın güləşçilərin yarışında baş məşqçi Semyon Çterev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Anjela Doroqan (53 kq), İrina Netreba, Nataliya Sinişin (hər ikisi - 58 kq) və Elis Manolova (69 kq) mübarizə aparacaqlar.

Yunan-Roma güləşçiləri yığma komandanın böyük məşqçisi İlqar Abdulovun başçılığı altında yarışa qatılacaq.

Heyətdə Taleh Məmmədov, Kərim Cəfərov (hər ikisi - 59 kq), Kamran Məmmədov (66 kq), Rəsul Çunayev və Həsən Əliyev (hər ikisi - 71 kq) yer alacaqlar.

Sərbəst güləşçilərin mübarizəsində Mahir Əmiraslanov (57 kq), Məhəmməd Müslümov, Gitinomaqomed Hacıyev (hər ikisi - 65 kq), Ruslan Dibirhacıyev (70 kq) və Nurməhəmməd Hacıyev (97 kq) qüvvəsini sınayacaqlar. Komandamız yarışda məşqçilər Sadurdin Ayqubovun və Əsgərxan Novruzovun başçılığı altında iştirak edəcək.

Görüşlərin idarə olunmasında Azərbaycanı beynəlxalq dərəcəli hakim Əbdül Nuriyev təmsil edəcək.

mozaika

texnologiya

## «Ağıllı» divar təqvimi

Yaponiyalı dizayner Koşo Tsuboi smartfonla sinxronlaşdırılan və planlaşdırılmış işlər haqqında informasiyanı əks etdirən «ağıllı» divar təqvimi hazırlayıb. Elektron mürəkkəb (e-ink) texnologiyası əsasında işləyən təqvim «Google» şirkətinin Yaponiyada fəaliyyət göstərən «Android Experiments» proqramı çərçivəsində yaradılıb. «Google Calendar» proqramı ilə sinxronlaşdırılan, ay və ya gün üçün cədvəli əks etdirən «Magic Calendar» zahirən adi kağız təqvimi xatırladır. Qurğunun satışa çıxarılma tarixi və digər təfərrüatlar hələlik məlum deyil.




təbiət

## 3 kiloqram ağırlığında limon

Özbəkistan Milli Universiteti nəzdindəki Kimya və Fizika polimerləri Elmi-Tədqiqat İnstitutunun elmi işçisi Muxammadaziz Faxritdinov çəkisizlik şəraitində təxminən 3 kiloqram ağırlığı olan tezyetişən limon əldə edib. Bu sitrus meyvəsi keyfiyyətinə görə adi limonlardan heç nə ilə fərqlənmir.

M.Faxritdinov jurnalistlərə bildirib ki, bu ağırlıqda limonun yetişdirilməsi institutun kollektivinin yaratdığı «Uzxitan» preparatı sayəsində mümkün olub. O deyib ki, əvvəl zoğ əmələ gəlməsi üçün 60 gün tələb olunurdu, bu preparatın köməyi ilə bu vaxt iki dəfə tezləşib. Tinglər əvvəl istixanada yetişdirilir, sonra açıq havaya köçürülür. Üç il ərzində bu tinglərə lazımi qaydada qulluq edilərsə, onlar 10 dərəcə şaxtaya davamlı olur. Bir koldan 5 il ərzində 120-150 limon yığmaq olar. Bu sort xəstəliklərə davamlıdır, işığı və nəmişliyi sevir.



sağlam qida

## 15 il bar verməsə də...



Yetişənə qədər sarmaşığı, yetişəndən sonra qəhvəyi rəngli lobyanı xatırladan keçibuynuzu həm qədim, həm də müasir bitkidir. Ona görə qədimdir ki, 5 min ildən çox yaşı var. Ona görə müasirdir ki, onun sağlamlıq üçün əhəmiyyəti son illər yenidən gündəmə gəlib.

Keçibuynuzu ağacının hündürlüyü 8-10 metrə çatır, əkiləndən sonra 15 il meyvə vermir. Digər bir adı da Harnup olan meyvə planetimizin ən qədim bitkilərindən biridir və cənubi Anadolu, Suriya, Kipr, Yunanıstan, İspaniya, Tunis, Əlcəzair, Fələstin və Liviyada bitir. Keçibuynuzu ağacı bar gətirəndə yüz kiloqramlarla məhsul verir. Onu toz halında və çiy şəkildə yeyir və bəhməz hazırlayırlar. Bir neçə yüz il əvvəl şirniyyatlarda şəkər əvəzi kimi onun meyvələrindən istifadə olunurdu. Ağ şəkər istehsalına başlanılandan sonra ondan imtina edilib və qidadakı rolu bir qədər unudulub.

Nəfəs darlığına qarşı keçibuynuzu meyvəsində olan maddə demək olar ki, heç bir bitkidə yoxdur. Bəzi allergik astma xəstəliklərində onun tətbiqi zamanı dərhal nəticə əldə etmək mümkündür. Keçibuynuzu allergiya, astma və xərçəng əleyhinə, mikroblara, ishal və qəbizliyə qarşı yaxşı təsir edir, qaraciyəri toksinlərdən təmizləyir, immun sistemini gücləndirir, uşaq iflicinin qarşısını alır. Çəyirdəkləri üyüdülərək süd və balla qəhvə kimi bişirilir və bəhməz hazırlanır.

Keçibuynuzu 90 faiz halda ağ ciyər xərçənginin qarşısını almaq gücünə malikdir. Xəstəliyin daha yaxşı sağalması üçün keçibuynuzu ilə qırmızı turpdan istifadə edilməsi müalicənin təsir gücünü artırır. Bitkidə xolesterolun yoxluğu da onun böyük üstünlüyüdür. Tərkibində kofein və teobromin olduğu üçün ondan qan təzyiqi zamanı istifadə etmək olar. Fosfor və kalsiumla zəngin olduğuna görə, osteoporoz xəstəliyi zamanı kalsium çatışmazlığının qarşısını almağa kömək edir.

Meyvələri təzə və quru halda yeyilir. Qurudulmuş yarpaq və budaqları qaynadılaraq çay hazırlanır. Çəyirdəyi üyüdülüb suda qaynadılandan sonra hazırlanan məlhəmin şiş və yaralara sürtülməsi sağalmanı sürətləndirir.

şəbəkə

## «Word» süni intellektlə işləyir




«Microsoft» şirkəti «Office 365» paketinə daxil olan «Word» proqramı üçün «Korrektor» panelini təqdim edib. Paneldə süni intellekt texnologiyaları tətbiq olunur. Bu, qrammatik səhvləri düzəltməklə yanaşı, həm də mətnin üslubiyyatının yaxşılaşdırılması üçün istifadəçilərə kömək etməyə imkan verir.

«Korrektor» paneli «Word» proqramındakı «Yazı qaydaları» funksiyası kimi işləyir və yazı üslubunun təkmilləşdirilməsi üzrə təkliflər siyahısı təqdim edir. Məsələn, «maybe» və «basically» («ola bilər» və «əsasən») sözlərini mənanı itirmədən silmək mümkün olarsa, onlar «şübhəli» kimi işarələnir.

İlk baxışda alqoritm sadə görünür, lakin «Word» yalnız müəyyən siyahıdan sözləri tapmır. Məsələn, really («həqiqətən») sözü «həqiqətən yaxşı» mənasında işləndiyində işarələnir. Bu halda, sadəcə, «yaxşı» yazmaq daha uyğundur və «Word» bunu «məsləhət görür». Əgər müəllif «Həqiqətən?» sualını verərsə, proqram anlayacaq ki, bu sözü başqa sözlə əvəz etmək mümkün deyil və digər təklif irəli sürməyəcək.

«Korrektor» paneli standart orfoqrafiya panelində yer alıb və F7 yaxud kontekst menyusunda vurğulanmış sözün üzərinə basmaqla istifadə olunur. «Word» potensial qrammatik səhvləri ikiqat göy xətlə, üslub çatışmazlıqlarını isə sarı punktirlərlə (qırıq xətlərlə) qeyd edir.

«Office» və «Microsoft»un digər məhsullarının istehsalçıları son zamanlar intellektual alqoritmlərə əsaslanan funksiyaları fəal tətbiq edirlər. Belə ki, 2014-cü ildə «Skype»da neyroşəbəkə texnologiyası əsasında danışığın avtomatik tərcüməsi meydana çıxmışdı. 2016-cı ildə isə «Office» proqramına lüğət tərifləri və ensiklopedik arayışları tapan «İntellektual axtarış» funksiyası əlavə olunub.





ELAN

**«Vergilər» qəzetinə**
**2017-ci il üçün**
**abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**



*«Fəaliyyət həmişə xoşbəxtlik gətirmir; lakin fəaliyyətsiz də xoşbəxtlik gəlmir».*
*Bencamin Dizraeli (1804-1881)*